

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

06 mart
2026-cı il,
cümə
№ 043 (7110)
Qiymәti
60 qəpik


# Bu terror aktını törədənlər peşman olacaqlar!

## Azərbaycan Ordusu bir nömrəli hazırlıq vəziyyətinə gətirilib



Bax səh. 2

## İlham Əliyev: Müstəqil Azərbaycan dövləti İranda yaşayan azərbaycanlılar üçün də ümid yeridir

# Azərbaycan xalqından üzr istəməyi tələb edirik!

## WUF13 Azərbaycanın uğurlarını dünyaya təqdim edəcək

Azərbaycanda 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilib. Bu da təsadüfi deyil. Xatırladaq ki, 2024-cü ildə respublikamızda BMT-nin ən böyük tədbiri olan iqlim konfransı - COP29 uğurla baş tutdu. Bu il isə ölkəmizdə daha bir mötəbər beynəlxalq tədbir keçiriləcək. Belə ki, 17-22 may tarixində Bakı şəhərində Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) keçirilməsi nəzərdə tutulur. Dünyanın nəzərləri yenidən Azərbaycana yönələcək, müasir dövrdə qlobal şəhərsalma çağırışları ölkəmizdə müzakirə olunacaq.

Yeri gəlmişkən, martın 4-də Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının (WUF13) təşkili ilə əlaqədar...

Bax səh. 4



## Azərbaycan istənilən təhdidin qarşısını almağa qadirdir

Bax səh. 2

## Dövlət-biznes münasibətləri yeni mərhələyə qədəm qoyur

Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdikdən sonra yerləşdiyi regionda yeni geosiyasi və iqtisadi reallıqlar formalaşdırıb, aparılmış islahatlar və həyata keçirilmiş proqramlar nəticəsində makroiqtisadi sabitlik və fiskal dayanıqlıq təmin edilib, fiskal inzibatçılıq təkmilləşib, maliyyə mövqeyimiz əhəmiyyətli dərəcədə güclənib, investisiya cəlbediciliyi artıb. Qlobal şoklara davamlılıq və keyfiyyətli iqtisadi artım üçün maliyyə-institusional baza möhkəmlənib. Bununla belə, qlobal iqtisadiyyatda artan qeyri-müəyyənlik, fraqmentasiya və ticarət proteksionizmi, texnoloji enerji transformasiyasının sürətlənməsi gələcək sosial-iqtisadi inkişaf üçün yeni çağırışlar ərsəyə gətirir. Bu barədə baş nazirin müavini Samir Şərifov "Vergi Sistemində Gələcəyə Baxış: Yeni İdarəetmə Modeli və Data Əsaslı Qərarlar" Forumunda...

Bax səh. 4





Bax səh. 3

## İran: qorxaqlığın, rəzilliyin və acizliyin təcəssümü...

### Naxçıvana dron hücumu Tehran rejiminin növbəti terror aktıdır

## Milli süni intellekt platforması

### "Sozly" süni intellekt infrastrukturunun formalaşmasına töhfə verəcək

Bax səh. 5

## Bank sektorunda canlanma: Kredit qoyuluşları artsa da, faizlər aşağı düşmür

Bax səh. 5



## İran qonşu ölkələrdə otelləri hədəfə alır

## Qarşıdurma davam edir

Bax səh. 7

## Türkiyə Azərbaycan xalqını dəstəkləyir



Martın 5-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Türkiyə Prezidenti İran İslam Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına edilən dron hücumunu qınadığını deyib, qardaş Azərbaycan xalqına dəstəyini ifadə edib.

Dövlətimizin başçısı telefon zənginə və mövqeyinə görə Rəcəb Tayyib Ərdoğana minnətdarlığını bildirib.

## BƏƏ Prezidenti İranın Azərbaycan ərazisinə hücumunu pisləyib



Martın 5-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti İran İslam Respublikasının pilotsuz uçuş aparatları ilə Azərbaycan ərazisinə hücumunu pisləyib, hadisə zamanı yaralananların tezliklə şəfa tapmasını diləyib.

Şeyx Məhəmməd bin Zayed Al Nəhyan İranın ölkəsinə raket hücumları zamanı dövlətimizin başçısı tərəfindən BƏƏ-yə göstərilən dəstəyə və bu hücumu qınayan mövqeyinə görə bir daha minnətdarlığını bildirib.

Dövlətimizin başçısı telefon zənginə görə Şeyx Məhəmməd bin Zayed Al Nəhyana təşəkkür edib.

Prezident İlham Əliyev İranın BƏƏ-yə raketlərlə və pilotsuz uçuş aparatları ilə hücumlarını bir daha pisləyib və fevralın 28-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti ilə telefon danışığında qeyd etdiyi kimi, ölkəmizin BƏƏ-nin yanında olduğunu vurğulayıb.

Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## BƏƏ Prezidenti İranın Azərbaycan ərazisinə hücumunu pisləyib



Martın 5-də Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, telefon danışığı zamanı Latviya Prezidenti İran İslam Respublikasının pilotsuz uçuş aparatları ilə Azərbaycan ərazisinə törətdiyi hücumu qətiyyətlə pislədiyini bildirib. Edqars Rinkeviçs baş vermiş hadisə ilə bağlı Azərbaycan dövləti və xalqı ilə həmrəy olduğunu vurğulayıb, hücum nəticəsində yaralananların tezliklə şəfa tapmalarını diləyib.

Prezident İlham Əliyev telefon zənginə və nümayiş etdirilən mövqeyə görə Latviyanın dövlət başçısına təşəkkürünü bildirib.

Söhbət zamanı dövlət başçıları Azərbaycan ilə Latviya arasında ikitərəfli münasibətlərin cari vəziyyəti, gələcək təmaslar və əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıblar.

# Bu terror aktını törədənlər peşman olacaqlar!







# Azərbaycan Ordusu bir nömrəli hazırlıq vəziyyətinə gətirilib

## İlham Əliyev: Müstəqil Azərbaycan dövləti İranda yaşayan azərbaycanlılar üçün də ümid yeridir

Martın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

-Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir. Naxçıvan Muxtar Respublikasının ərazisini İran dövləti pilotsuz uçuş aparatları ilə atəş altına salmışdır. Atəşin hədəfləri mülki obyektlər idi. Naxçıvan Beynəlxalq Hava Limanı, onun terminal binası, məktəb və digər istiqamətlər İran tərəfindən namərd atəşə məruz qalmışdır. Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir.

Birinci dəfə deyil ki, İran dövləti Azərbaycana və azərbaycanlılara qarşı terror aktları həyata keçirir. Hamımız yaxşı xatırlayırıq ki, bir müddət bundan əvvəl Azərbaycanın Tehrandakı səfirliyi terror aktına məruz qalmışdır. Səfirliyə hücum çəkmiş İran xüsusi xidmət orqanları tərəfindən təlimatlandırılmış şəxs Azərbaycan vətəndaşlarına qarşı qanlı terror aktı törədib. Bunun nəticəsində bir vətəndaş həlak olub, bir vətəndaş isə ağır yaralanıb. Onu da bildirməliyəm ki, Azərbaycanın xüsusi xidmət orqanlarının əliyalın nümayəndəsi avtomat "Kalaşnikov"la, "Molotov" kokteyli və balta ilə silahlanmış terrorçunu zərərsizləşdirib. O vaxt da bizdə şübhə yox idi ki, bunu törədən İran dövlətidir. Çünki bu terror aktı həm səfirliyin içində, həm səfirliyin ətrafında, təqribən 40 dəqiqəyə qədər davam edirdi. Bu 40 dəqiqə ərzində bir dənə də olsun nə təhlükəsizlik, nə polis nümayəndəsi səfirliyə yaxınlaşmayıb. Aydın məsələ idi ki, Azərbaycanı qorxutmaq, Azərbaycana qarşı çirkin əməllərini həyata keçirmək üçün bu terror aktı İranın dövlət qurumlarının ən rəhbər mərtəbələrindən sifariş edilmişdir. Bildiyiniz kimi, o vaxt Azərbaycan bu hadisəyə çox sərt reaksiya vermişdi, Azərbaycan səfirliyi İrandan təxliyə edilmişdi, bütün diplomatik əlaqələr dayandırılmışdı. İran tərəfi bizdən üzr istəməyə, öz günahını etiraf etməyə məcbur olmuşdu. O terror aktını törədənə bizim təkidimizlə ən ağır cəza da verilmişdi. Hətta uzun müddət bu cəzanı həyata keçirməyə maraq göstərməyən, hətta cinayətkarı xilas etməyə çalışan İran dövləti məcbur olub terrorçunu Azərbaycan nümayəndələrinin gözü qarşısında edam etmişdi. Bu dəfə də cavab eyni olacaq. Biz Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq. Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin.

Dəfələrlə İran tərəfinə, xüsusilə keçən il baş vermiş toqquşmalardan sonra bildirilmişdir ki, Azərbaycan ərazisindən heç bir qonşu dövlətə qarşı istifadə olunmayacaq. Biz buna imkan verməyəcəyik, necə ki, heç vaxt bu günə qədər imkan verməmişik. Düzdür, keçən ilin yay aylarında və ondan sonrakı dövrdə İrandan bizə əsassız ittihamlar irəli sürülürdü. İranın dövlət qurumlarının nəzarətində olan media resursları Azərbaycanı ləkələmək, İranda yaşayan soydaşlarımızın fikrini dəyişdirmək üçün Azərbaycana qarşı çirkin, şərböhtan kampaniyası aparırdı. Çünki yaxşı bilirlər ki, bu gün müstəqil Azərbaycan dövləti İranda yaşayan bir çox azərbaycanlılar üçün də ümid yeridir. Yəni bizi ləkələmək, bizi şərləmək, gözdən salmaq İran ictimaiyyəti qarşısında bu məqsədi güdürdü. Çünki bunun heç bir əsası yox idi. Azərbaycan nə o vaxt, nə də bu dəfə İrana qarşı olan əməliyyatlarda iştirak etmir və etməyəcək. Çünki bizim mövqeyimiz bundan ibarətdir. Bizim qonşu ölkələrə qarşı hər hansı bir əməliyyat keçirməyə nə marağımız var, nə də siyasətimiz buna imkan verir. Biz öz ərazi bütövlüyümüzü qoruyuruq və qorumuşuq. Necə ki, Ermənistan işğalına son qoymuşuq, istənilən şər qüvvəyə qarşı öz gücümüzü göstərməyə hazırıq və İranda bunu unutmasınlar. Onların törətdiyi bu terror aktı bütün başqa çirkin amillərlə yanaşı, böyük nankorluq nümunəsidir. Son hadisələr baş verən kimi biz onlara xəbər göndərdik, başsağlığı verdik. Xarici işlər naziri mənim göstərişimlə həmkarı ilə danışdı. Mən onların səfirliyinə gedib başsağlığı vermək üçün öz mövqeyimi bildirdim. Halbuki məndən başqa heç bir dövlət başçısı İranın heç bir səfirliyinə getməyib. Yəni bunu qiymətləndirməmək, bunu yerə vurmaq, özlərini alçaq, nankorlar kimi aparmaq heç kimə şərəf gətirmir. Bu şərəfsizlər, bizə qarşı bu terror aktını törədənlər peşman olacaqlar. Bizim gücümüzü sınamasınlar. Bizim gücümüzü sınamaq istəyənlərin başı "Dəmir yumruq" vasitəsilə yarıldı. Bugünkü hadisə də eyni nəticəni hasil edəcək. Ona görə bu məsələ ilə bağlı tədbirlər planı hazırlanmalıdır. Bütün göstərişlər verilmişdir. İranın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə çağırıldı, etiraz notası veriləcək, digər diplomatik addımlar atılacaq. Sərhədlə bağlı müvafiq göstərişlər verildi.

Onu da bildirməliyəm, bu gün səhər mənə məlumat verildi ki, İranın xarici işlər nazirinin müavini Bakıya zəng edir, xahiş edir ki, İran səfirliyinin Livanda qalmış əməkdaşlarının təxliyəsinə Azərbaycan kömək etsin. Çünki onların imkanı yoxdur. Mənə məruzə edildi. Mən dərhal göstəriş verdim ki, kömək göstərin, təyyarə göndərin. Hətta onlar dedilər ki, biz bunun pulunu da verməyə hazırıq. Dedim ki, lazım deyil, indi dar gündə biz kömək göstərməsək, bəs nə vaxt kömək göstərməliyik? Bütün bunların müqabilində çirkincə, namərdcə, nakişi kimi Naxçıvana zərbə endirmək?! Bu ləkə onların çirkin və eybəcər simasından heç vaxt silinməyəcək. Ona görə diplomatik yollarla bütün lazımi tədbirlər görüləcək. Bizim Silahlı Qüvvələrimiz - Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, digər bütün Xüsusi Təyinatlı Qüvvələr bir nömrəli səfərbərlik vəziyyətinə gətirilib və istənilən əməliyyatı keçirməyə hazır olmalıdırlar. Hələlik bu qədər.

Biz Azərbaycan xalqını proseslərin gedişatı ilə əlaqədar məlumatlandıracağıq. Müdafiə Nazirliyinin açıqlaması artıq mətbuatda dərc edilib. Azərbaycan xalqı əmin olmalıdır ki, istənilən bəd qüvvə onlara qarşı bizim "Dəmir yumruğ"umuzu görəcək.

# Azərbaycan istənilən təhdidin qarşısını almağa qadirdir

Martın 5-də İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən pilotsuz uçuş aparatları vasitəsilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının beynəlxalq hava limanına və digər mülki infrastruktura hücum aktlarının həyata keçirilməsi bütün Azərbaycan ictimaiyyəti kimi, Yeni Azərbaycan Partiyasının üzvlərinin də ciddi narahatlığına və böyük hiddətinə səbəb olmuşdur.

Azərbaycan-İran dövlətlərarası münasibətlərinin ruhuna və beynəlxalq hüquq normalarına zidd olan bu xain təxribat cəhdi regionda hərbi-siyasi gərginliyin artmasına xidmət göstərir.

Ərazi bütövlüyü və mütləq suverenliyini bərpa etməklə yeni reallıqlar yaradan müstəqil Azərbaycan dövləti hər zaman mehriban qonşuluq prinsipinə sadiq olub. Ölkəmizin bu gün milli maraqlar və qlobal çağırışları nəzərə almaqla həyata keçirdiyi konstruktiv siyasət və sülh diplomatiyası regionda etibarlı təhlükəsizlik və çoxşaxəli əməkdaşlıq kontekstində etimad quruculuğuna hədəflənmişdir. Eyni zamanda, Cənubi Qafqazın lider dövləti kimi hərbi-strateji potensialını daha da gücləndirən Azərbaycan milli və regional təhlükəsizliyə yönəlmiş istənilən təhdidin qarşısını almağa qadirdir.

Qonşu İran dövlətinin bu hücum aktını qətiyyətlə pisləyir, Azərbaycan xalqından üzr istəyərək ölkəmizə qarşı qərəzli təbliğata və bütün təxribat cəhdlərinə birmənalı şəkildə son qoyulmasını tələb edirik!

**Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı**

# İran: qorxaqlığın, rəzilliyin və acizliyin təcəssümü...

## Naxçıvana dron hücumu Tehran rejiminin növbəti terror aktıdır










Xəbər verildiyi kimi, dünən Naxçıvan şəhərinə İranın dron hücumları olub. Beynəlxalq Hava Limanı dron zərbəsinə məruz qalıb. Zərbə nəticəsində hava limanı terminalının daxilində dağıntıların olduğu, tavan konstruksiyalarının və şüşələrin zədələndiyi bildirilir. Hadisə nəticəsində 4 mülki şəxs xəsarət alıb. Eyni zamanda, baş verən hadisədən sonra Bakıdan Naxçıvana uçuş ləğv edilib.

Bundan başqa, İran ərazisindən uçan dronlardan biri Naxçıvan Muxtar Respublikasının Babək rayon Şəkərabad kənd tam orta məktəbin yaxınlığına düşərək partlayıb.

KİV-lərin məlumatına görə, hücum uzaq mənzilli "Arash-2" kamikadze PUA vasitəsilə həyata keçirilib. Bu dron uzaq məsafədə yerləşən strateji hədəfləri vurmaq üçün nəzərdə tutulub.

**Rəsmi mövqe açıqlandı...**

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) məsələ ilə bağlı bəyanat yayıb. Bəyanatda bildirilir ki, martın 5-də edilən hücum zamanı bir ədəd dron Naxçıvan Muxtar Respublikasının Hava Limanının terminal binasına, digər bir dron isə Şəkərabad kəndində məktəb binasının yaxınlığına düşüb. "Hava Limanının binasına zərər dəyməsi və mülki şəxslərin xəsarət alması ilə nəticələnən İran İslam Respublikası ərazisindən həyata keçirilən bu dron hücumlarını qətiyyətlə pisləyirik.

Azərbaycan ərazisinə bu hücum beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq və regionda gərginliyin artmasına xidmət edir. Bəyanatda İran İslam Respublikasının qısa müddət ərzində qeyd olunan məsələyə aydınlıq gətirilməsi, buna izahat verməsi və bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlər görməsi tələb olunub. "Azərbaycan tərəfi müvafiq cavab tədbirləri görmək hüququnu özündə saxlayır", - deyə bəyanatda vurğulanıb.

Qeyd edək ki, İranın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Müctəba Dəmirçilu Xarici İşlər Nazirliyinə çağırılıb. İran tərəfinə kəskin etiraz bildirilərək, müvafiq etiraz notası təqdim edilib.

**MN: "hücum aktları cavabsız qalmayacaq"**

Müdafiə Nazirliyinin yaydığı məlumatda isə bildirilib ki, pilotsuz uçuş aparatlarının texniki parametrləri və bu hücumların təfərrüatları araşdırılır. Qeyd olunub ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyi hər hansı hərbi zərurət olmadığı halda, İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən ölkəmizin ərazisindəki mülki infrastruktura qarşı törədilən hücumları qəti şəkildə pisləyir.

Baş vermiş hadisəyə görə məsuliyyət tam şəkildə İran İslam Respublikasının üzərinə düşür. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin müdafiəsi, mülki şəxslərin və mülki infrastrukturun təhlükəsizliyinin təmin olunması üçün zəruri cavab tədbirləri hazırlayır və bu hücum aktları cavabsız qalmayacaq", - deyə Müdafiə Nazirliyindən bildirilib.

Nazirlikdən, həmçinin bildirilib: İran İslam Respublikası silahlı qüvvələrinin Baş qərargahının İranın bütün ölkələrin, xüsusən də müsəlman və qonşu ölkələrin suverenliyinə hörmətlə yanaşdığını bəyan etməsi və bu xüsusda İran tərəfindən Azərbaycana qarşı pilotsuz uçuş aparatları ilə bu gün törədilmiş hücumları təkzib etməsi heç bir halda məqbul sayıla bilməz.

Məlumata görə, texniki vasitələrlə təsbit edilib ki, İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən dörd ədəd pilotsuz uçuş aparatı Azərbaycanın Naxçıvan bölgəsinə doğru hücum aktlarını törətmək üçün yönləndirilib, onlardan biri Azərbaycan Ordusu tərəfindən sıradan çıxarılıb, digərləri isə mülki infrastrukturu, o cümlədən dərs saatlarında orta məktəb binasını hədəfə alıb. Orta məktəb binasını hədəfə alan pilotsuz uçuş aparatı xoşbəxtlikdən hədəfə yetişməyib, məktəbin yaxınlığında yerə çırpılaraq partlayıb.

"Qeyd olunanları nəzərə alaraq, İran İslam Respublikasının silahlı qüvvələrindən aşkar inkarçılığa son qoymağı, baş vermiş hadisəyə görə üzrxahlıq ifadə etməyi və İranın aidiyyatı qurumları tərəfindən günahkarların cəzalandırılmasını gözləyirik".

**Humanizmin qarşılığında xain hücum...**

Qeyd edək ki, İranın atdığı bu addımın yalnız bir adı var - xain hücum. Azərbaycanın bu ölkəyə qarşı nümayiş etdirdiyi yüksək qonşuluq münasibətinin, hörmətin qarşılığını rəsmi Tehran beləmi verir? Qarşıdurma başlanan gündən, yəni fevralın 28-dən Azərbaycan özünün rəsmi mövqeyini ortaya qoyaraq tərəfləri sülhə, dinc danışıqlara dəvət edib, məsələnin qeyri-zorakı yollarla həllini dəstəklədiyini bəyan edib. İranın Ali Dini Lideri Əli Xameneinin öldürülməsi ilə bağlı Azərbaycan Prezidenti İranın dövlət başçısı məsud Pezeşkiana başsağlığı verib. Ardından isə Prezidenti İlham Əliyev martın 4-də İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olub, İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar başsağlığı verib, matəm kitabına ürək sözlərini yazıb. Bu humanizmin, bu yüksək davranışın qarşılığında İranın Azərbaycan torpaqlarına dron hücumu həyata keçirməsi xəyanətin, rəzilliyin və çirkinliyin təcəssümüdür. Diqqətə çatdırmaq lazımdır ki, Azərbaycan İrandan fərqli olaraq hər zaman qonşuluq məsələsinə həssas yanaşıb - Bakı hər zaman bəyan edib ki, bizim ərazilərimizdən İrana qarşı hücumda istifadə edilməyib, edilməyəcək də. Amma 44 günlük müharibə dövründə İranın Azərbaycan əsgərinin yolunu kəsməyə çalışması heç kimin yaddaşından silinməyib. Bu qədər yaxşılığın, bu qədər humanizmin və bu qədər də alicənablığın qarşılığında İranın bu kimi "özünəlayiq", "adınalayiq" vəhşiliyə, çirkinliyə əl atması anlaşılan deyil. Budurmu bizə təşəkkür?...

**Azərbaycan adı Tehranı niyə narahat edir?**

Azərbaycanın rəsmi mövqeyində də əks olunduğu kimi, baş vermiş hadisəyə görə məsuliyyət tam şəkildə İran İslam Respublikasının üzərinə düşür. Nankorluğun, riyakarlığın göstərici kimi qiymətləndirilən Naxçıvan ərazisinə dron zərbəsinin endirilməsi İran rejiminin qorxaqlığının və acizliyinin əksidir - mülki infrastruktura dron hücumu təşkil etmək, məktəbə, hava limanına dron zərbəsi endirmək, mülki insanları hədəfə almaq başqa adla adlandırıla bilməz. Bu addımla İran heç bir şey qazanmadı -amma itirdikləri çox şey ola bilər. Çünki bu hücum beynəlxalq hüququn norma və prinsiplərinə zidd və birbaşa regionda gərginliyin artmasına xidmət edir.

Riyakarlıqdan başqa ad verilməyəcək bu addım Azərbaycanın humanist davranışlarının qarşılığında atılıb - Bakı dar gündə həmişə qonşularına dəstək olub. Bunu misallarla da sübut etmək olar - Azərbaycan bütün münaqişə zonalarına, zərər çəkən ərazilərə, mülki vətəndaşlara, xüsusilə də qonşulara hər zaman dayaq olub. Azərbaycan İrana humanitar yardım göndərməyi də planlaşdırırdı - amma qarşılığında bizə qarşı bu cür nankor münasibət sərgiləndi.

**İran peşman olacaq...**

İranın Naxçıvana dron hücumunun bir adı var - mülki insanalara qarşı terror cəhdi. Mülki obyektin, məktəbin, mülki vətəndaşların istifadə etdiyi hava limanının hədəfə alınmasının, dinc sakinlərin hədəfə alınmasının başqa adı yoxdur - bunun bir adı var TERROR. Bu addım ilə bir daha sübut olundu ki, İran rejimi bütövlükdə azərbaycanlılara qarşı qənim kəsilib, düşmənçilik siyasəti yürüdür - Azərbaycan Respublikasına qarşı çirkin və nankor addımlar atır, öz ərazisindəki soydaşlarımızı bütün hüquqlardan məhrum edir, daim təzyiq altında saxlayır, azərbaycanlı fəallar təqib olunur, cəzalandırılır. Beləliklə, İran rejimi özünün əsl iç üzünü ortaya qoyur.

Amma İran və onun rəhbərliyi unutmamalıdır ki, Azərbaycana hücum edənlər həmişə peşman olublar - İran da bu qorxaq əməlinə görə peşman olacaq. İran ən qısa müddətdə qeyd olunan məsələyə aydınlıq gətirməli, buna izahat verməli və bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlər görməli, öhdəlik götürməlidir. Əks halda Azərbaycan tərəfi müvafiq cavab tədbirləri görmək hüququnu özündə saxlayır və bu hücum aktları cavabsız qalmayacaq.

**Üzrü qəbahətindən böyük...**

İran bir daha kimliyini ortaya qoyur - ölkənin xarici işlər nazirinin müavini Kazım Qəribabadinin məsələyə münasibəti də bunun göstəricisidir. Qeyd edək ki, Naxçıvan Beynəlxalq Aeroportuna dron hücumu ilə bağlı yayılan məlumatlara münasibət bildirən XİN rəsmisi Azərbaycanın "AnewZ" kanalına açıqlamasında deyib ki, Tehran qonşu ölkələri hədəf almır və bu hadisə mütləq araşdırılmalıdır. Nazir müavini qeyd edib ki, İran yalnız düşmənlərinin hərbi bazalarının yerləşdiyi əraziləri hədəfə alır. Nazir müavininin sözlərinə görə, məsələ ilə bağlı yayılan məlumatların dəqiqliyi araşdırılmalı və hadisənin necə baş verdiyi müəyyənləşdirilməlidir.

Deməli ki, bu dövlət ya yalan danışır, ya Azərbaycanı özünə düşmən sayır, ya da... Ya da onların tarixi acısı, ağrısı bitmək bilmir ki, bilmir. Azərbaycanın gücü, regiondakı mövqeyi İranı hər zaman narahat edib. Bəzən açıq büruzə verilən, bəzən gizli olan bu narahatlıq nəticə etibarı ilə bitməyib. İranın bizə qarşı davranışları heç bir zaman səmimiyyətə söykənməyib. Bu dəfə olduğu kimi...

**Özbəkistan bizimlədir...**

İranın ölkəmizə qarşı həyata keçirdiyi bu nankor, rəzil terror aktı dünya ictimaiyyəti tərəfindən qınanılır. Martın 5-də Özbəkistanın xarici işlər naziri Baxtiyor Saidov Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub. Telefon danışığı zamanı Azərbaycanın Naxçıvan Muxtar Respublikası ərazisinə İran İslam Respublikası ərazisindən dron hücumlarının narahatlıq doğurduğu bildirilib.

**Britaniya həmrəy olduğunu bildirdi...**

"Bu gün iki İran dronunun Naxçıvana zərbə endirməsi tamamilə qəbuledilməzdir". Bunu isə Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Auld özünün "X" sosial media hesabında yazıb. "Böyük Britaniya Azərbaycanın təhlükəsizliyini təhdid edən istənilən hərəkəti qətiyyətlə pisləyir. Bu çətin məqamda Azərbaycanla və zərərçəkənlərlə tam həmrəyik. Səfirlik baş verənləri yaxından izləyir", - deyə açıqlamada qeyd olunub.

**Qətər pislədi...**

Qətər Dövləti Azərbaycan Respublikasında hava limanının İran pilotsuz uçuş aparatları ilə vurulmasını qətiyyətlə pisləyib. Qətər XİN-in bəyanatında bildirilib ki, Türkiyənin ballistik raketlə və Azərbaycanda isə hava limanının İran PUA-ları ilə hədəf alınması düşmənçilik hərəkətləridir. Bəyanatda bu hərəkətlər təhlükəli eskalasiya və dövlətlərin suverenliyinin açıq şəkildə pozulması kimi qiymətləndirilib, həmçinin regionun təhlükəsizliyi və sabitliyi üçün birbaşa təhdid hesab edilib.

Nazirlik, həmçinin Qətər Dövlətinin Türkiyə Respublikası və Azərbaycan Respublikası ilə tam həmrəy olduğunu vurğulayıb və onların suverenliyini, təhlükəsizliyini və ərazi bütövlüyünü qorumaq üçün gördükləri bütün tədbirləri dəstəklədiyini bildirib.

**Səudiyyə Ərəbistanı: bu, beynəlxalq normalara zidd olan düşmənçilik davranışıdır**

Səudiyyə Ərəbistanı da İranın Türkiyə Respublikasını və Azərbaycan Respublikasını hədəf almağa cəhd etməsini qətiyyətlə pisləyib və bunu kəskin şəkildə qınayıb. Ölkə XİN-i bu cür cəhdləri beynəlxalq qanunlara və qəbul olunmuş beynəlxalq normalara zidd olan düşmənçilik davranışı adlandırıb. Nazirlik bəyanatında vurğulayıb ki, hər iki ölkəyə qarşı edilən bu qorxaq cəhdlər heç bir halda əsaslandırıla bilməyən düşmənçilik mövqeyini göstərir. Həmçinin bildirilib ki, İranın region ölkələrinə qarşı bu cür davranışları təkrarlaması gərginliyin daha da artmasına səbəb olur və regional təhlükəsizliyi və sabitliyi təhdid edir. Bəyanatda, həmçinin Krallıq hökumətinin və xalqının Türkiyə və Azərbaycanla tam həmrəy olduğu bildirilib, hər iki ölkənin öz təhlükəsizliyini, hava məkanını, ərazi bütövlüyünü və vətəndaşlarını qorumaq hüququnun dəstəkləndiyi bir daha vurğulanıb.

**Kiyev Azərbaycanla həmrəydir**

Ukraynanın Azərbaycandakı səfirliyi də İranın Naxçıvana etdiyi PUA hücumları ilə bağlı bəyanat yayaraq, bu hadisəni pisləyib. Səfirlik Azərbaycanla həmrəy olduğunu bildirib və İranın pilotsuz uçuş aparatlarının artıq qlobal səviyyədə bir terror alətinə çevrildiyini vurğulayıb.

Ukrayna diplomatik nümayəndəliyi beynəlxalq birliyi qlobal təhlükəsizliyi sarsıdan rejimlərə qarşı mübarizəni gücləndirmək üçün birləşməyə çağırıb. Bəyanatda xüsusi olaraq qeyd edilib ki, hal-hazırda Naxçıvanın mülki infrastrukturuna zərbə endirən eyni növ dronlardan İran rejimi uzun müddətdir Ukrayna şəhərlərini, dinc əhalini və kritik infrastrukturu hədəf almaq üçün istifadə edir. "Ukrayna beynəlxalq hüquqa, ləyaqətə və insan həyatına məhəl qoymayan rejimlərin yaratdığı təhlükəni hamıdan yaxşı bilir", - deyə mətndə vurğulanıb.

**Küveyt də pislədi...**

Küveyt Dövləti İranın Türkiyə Respublikasını və Azərbaycan Respublikasını hədəf almasını qətiyyətlə pisləyib və bunu sərt şəkildə qınayıb. Küveyt XİN bu cür cəhdləri beynəlxalq qanunların və BMT nizamnaməsinin açıq şəkildə pozulması hesab edir. Nazirlik, həmçinin Küveyt Dövlətinin Türkiyə Respublikası və Azərbaycan Respublikası ilə tam həmrəy olduğunu vurğulayıb və onların suverenliyini, təhlükəsizliyini və sabitliyini qorumaq üçün gördükləri bütün tədbirləri dəstəklədiyini bildirib.

*Pərviz SADAYOĞLU*

# WUF13 Azərbaycanın uğurlarını dünyaya təqdim edəcək

Azərbaycanda 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilib. Bu da təsadüfi deyil. Xatırladaq ki, 2024-cü ildə respublikamızda BMT-nin ən böyük tədbiri olan iqlim konfransı - COP29 uğurla baş tutdu. Bu il isə ölkəmizdə daha bir mötəbər beynəlxalq tədbir keçiriləcək. Belə ki, 17-22 may tarixində Bakı şəhərində Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) keçirilməsi nəzərdə tutulur. Dünyanın nəzərləri yenidən Azərbaycana yönələcək, müasir dövrdə qlobal şəhərsalma çağırışları ölkəmizdə müzakirə olunacaq.



## Təşkilat Komitəsinin növbəti iclasında...

Yeri gəlmişkən, martın 4-də Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının (WUF13) təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin növbəti iclası keçirilib. Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, dövlətimizin sosial-iqtisadi siyasətində şəhərsalma fəaliyyətinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən əsas strateji hədəflərdən biri kimi müəyyən edildiyini vurğulayıb. O, 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsinin şəhərsalma sahəsinə verilən əhəmiyyətin növbəti ifadəsi olduğunu bildirib. Təşkilat Komitəsinin sədri dövlətimizin başçısının rəhbərliyi ilə paytaxt və regionların tarazlı inkişafının təmin edilməsi və dayanıqlı məskunlaşmanın təşviqi istiqamətində həyata keçirilən ardıcıl, məqsədyönlü tədbirlərin ölkənin hərtərəfli inkişafında mühüm rol oynadığını qeyd edib.

Samir Nuriyev Azərbaycanın qlobal şəhərsalma proseslərini diqqət mərkəzində saxlayan bir ölkə olaraq, bu sahədə innovativ yanaşmaları irəli sürdüyünü və onları praktiki müstəvidə uğurla tətbiq etdiyini diqqətə çatdırıb. Belə ki, öz miqyasına, əhatə dairəsinə və sürətinə görə qlobal səviyyədə nadir nümunələrdən biri olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq prosesinin bunun ən bariz təzahürü olduğunu söyləyib. Eyni zamanda, 2026-cı ilin may ayında Bakıda keçiriləcək və artıq böyük beynəlxalq marağa səbəb olan WUF13-ün Azərbaycanın şəhərsalma sahəsində formalaşdırdığı konseptual yanaşmanın, o cümlədən işğaldan azad edilmiş ərazilərdə tətbiq edilən praktiki təcrübənin beynəlxalq müstəvidə təqdimatı üçün platforma olduğunu qeyd edib.

Daha sonra Təşkilat Komitəsinin üzvlərinin WUF13-ə hazırlıq prosesinin cari vəziyyəti, substantiv məsələlər, kommunikasiya və təşkilati-logistika istiqamətlərində görülmüş işlər, həmçinin gündəlikdə yer alan digər məsələlər barədə məruzələri dinlənilib. Təşkilat Komitəsinin sədri iclasın yekununda Azərbaycan Respublikasının Prezidenti tərəfindən WUF13-ün yüksək səviyyədə təşkili ilə əlaqədar qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsindən irəli gələrək, iclas iştirakçılarına bütün işlərin daha keyfiyyətli, vaxtında və kompleks yanaşma təmin edilməklə icrasına dair göstərişlər verib.

## WUF13 qlobal platformadır

Qeyd edək ki, məzmununa və əhatə dairəsinə görə WUF13 BMT-nin İqlim Dəyişikliyi üzrə Tərəflər Konfransından (COP) sonra ikinci ən böyük və strateji əhəmiyyətli qlobal platforma hesab olunur. Bu mühüm tədbirin Bakıda təşkili yalnız regional deyil, həm də qlobal miqyasda şəhərsalma, dayanıqlılıq və ətraf mühit sahələrində Azərbaycanın artan liderliyini nümayiş etdirir. Nəzərə alaq ki, qloballaşan dünyada şəhərsalma insan həyatının keyfiyyətini artırmaq, ətraf mühiti qorumaq və iqtisadi inkişafı təmin etmək baxımından əsas prioritetlərdən birinə çevrilib. Şəhərlər sürətlə böyüyür, lakin bu prosesin planlı və dayanıqlı olması gələcək nəsillərin rifahı üçün həyati əhəmiyyət daşıyır. Azərbaycan öz inkişaf strategiyalarında şəhərsalmanı insan mərkəzli, ekoloji və iqtisadi cəhətdən dayanıqlı şəkildə formalaşdırmağa xüsusi önəm verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən şəhərsalma proqramları, müasir infrastruktur layihələri və işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri bu sahədə Azərbaycanı regionun qabaqcıl ölkələrindən birinə çevirib.

Ümumdünya Şəhərsalma Forumu yalnız coğrafi mövqe baxımından deyil, həm də urbanizasiya sahəsində qlobal transformasiyanın mərkəzi kimi strateji əhəmiyyət daşıyır. Forum dünyanın aparıcı şəhərsalma mütəxəssislərinin, siyasətçilərin, ekspertlərin bir araya gələcəyi universal platformaya çevriləcək və gələcək nəsillər üçün innovativ şəhər modellərinin müzakirə olunacağı mühüm dialoq məkanı rolunu oynayacaq.

Bakı bu mötəbər tədbirin ev sahibi olmaqla artıq formalaşmış şəhər inkişaf konsepsiyasını beynəlxalq ictimaiyyətə təqdim etmək imkanı qazanacaq. 2019-cu ildə Beynəlxalq Memarlar İttifaqının Baş Assambleyasına və tematik foruma ev sahibliyi edən Bakı şəhəri o dövrdə də beynəlxalq şəhərsalma mühitində böyük maraq doğurub. Həmin tədbir Azərbaycanın şəhərsalma və memarlıq sahəsində qlobal əməkdaşlığa verdiyi əhəmiyyətin ilkin təzahürlərindən biri olub.

## Azərbaycan nümunəsi ...

Son illərdə paytaxt Bakıda həyata keçirilən kompleks abadlıq, infrastruktur və yaşıllaşdırma proqramları Azərbaycanın şəhər planlaşdırılmasına dair uzunmüddətli baxışını əks etdirir. Yeni salınan parklar, bərpa olunmuş ictimai məkanlar və ekoloji baxımdan balanslaşdırılmış şəhər strukturu Bakını dayanıqlı və yaşamaq üçün daha əlverişli məkana çevirir. Bu təşəbbüslər həm də ölkənin WUF13 kimi nüfuzlu tədbirlərə əhəmiyyətli töhfə verməyə tam hazır olduğunu göstərir.

Forumun Bakıda keçirilməsi, eyni zamanda, Azərbaycanın son illərdə şəhərsalma və ərazi bərpası istiqamətində apardığı genişmiqyaslı işlərin beynəlxalq səviyyədə tanınmasına səbəb olacaq. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən şəhər konsepsiyaları, xüsusilə də azad edilmiş ərazilərdə sıfırdan inşa olunan ağıllı və ekoloji məntəqələr Azərbaycanın bu sahədə regional lider kimi çıxış etdiyini göstərir.

Bu tədbir Azərbaycan üçün təkcə nailiyyətlərini sərgiləmək imkanı deyil, həm də gələcəkdə qlobal iqlim dəyişikliklərinə, şəhər mühitinin idarə edilməsinə və dayanıqlı inkişaf hədəflərinə cavab verəcək yeni beynəlxalq tərəfdaşlıqlar qurmaq baxımından əhəmiyyətli platforma olacaq.

*Nardar BAYRAMLI*

# Dövlət-biznes münasibətləri yeni mərhələyə qədəm qoyur

### "Vergi sistemində gələcəyə baxış: Yeni idarəetmə modeli və data əsaslı qərarlar" Forumunda biznes sahəsində yeni islahatlar müzakirə olunub

Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdikdən sonra yerləşdiyi regionda yeni geosiyasi və iqtisadi reallıqlar formalaşdırıb, aparılmış islahatlar və həyata keçirilmiş proqramlar nəticəsində makroiqtisadi sabitlik və fiskal dayanıqlıq təmin edilib, fiskal inzibatçılıq təkmilləşib, maliyyə mövqeyimiz əhəmiyyətli dərəcədə güclənib, investisiya cəlbediciliyi artıb. Qlobal şoklara davamlılıq və keyfiyyətli iqtisadi artım üçün maliyyə-institusional baza möhkəmlənib. Bununla belə, qlobal iqtisadiyyatda artan qeyri-müəyyənlik, fraqmentasiya və ticarət proteksionizmi, texnoloji enerji transformasiyasının sürətlənməsi gələcək sosial-iqtisadi inkişaf üçün yeni çağırışlar ərsəyə gətirir. Bu barədə baş nazirin müavini Samir Şərifov "Vergi Sistemində Gələcəyə Baxış: Yeni İdarəetmə Modeli və Data Əsaslı Qərarlar" Forumunda bildirib.





#### Biznes mühitinin yaxşılaşdırılması üçün təkliflər hazırlanır

Azərbaycanda yürüdülən iqtisadi siyasətin mühüm tərkib hissəsi kimi vergi islahatları davam etdirilir. Hökumətin strateji baxışının əsas komponentlərini təşkil edən bu yanaşma "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və cari dövr üçün hazırlanan sosial-iqtisadi inkişaf strategiyaları ilə tam uzlaşır. Bu strateji hədəflərin real iqtisadi mənfəət çevrilməsi üçün əsas məsələ onların səmərəli idarə olunması, ardıcıl icrası və qurumlararası əlaqələndirmənin təmin edilməsidir. İqtisadi siyasətdə vahid yanaşma, çeviklik və institusional sinxronluq olmadan dayanıqlı və inklüziv inkişafı təmin etmək mümkün deyil. Bu məqsədlə ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması və institusional islahatların koordinasiyalı şəkildə həyata keçirilməsi üçün Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya fəaliyyət göstərir. Komissiya beynəlxalq reytinqləri formal məqsəd kimi deyil, real biznes mühitinin keyfiyyətinin yüksəldilməsi üçün alət kimi dəyərləndirir. Komissiya çərçivəsində "Biznesə daxil olma" və "Vergi və hesabatlılıq" üzrə işçi qrupları sahibkarlığa başlama proseslərinin sadələşdirilməsi, inzibatçılığın və vergi mühitinin daha şəffaf və proqnozlaşdırıla bilən edilməsi üzərində işləyir.

S.Şərifov bildirib ki, İqtisadi Şurasının tərkibində yaradılmış "Sahibkarlıq fəaliyyətində manea və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə işçi qrupu"nun alt qruplarında vergi sahəsində sahibkarların təkliflərinin toplanmasına start verilib. Vurğulanıb ki, dünya iqtisadiyyatında müşahidə olunan proseslər bir daha göstərir ki, makroiqtisadi sabitlik özü-özünə formalaşan nəticə deyil. "Bu, ardıcıl siyasətin, ehtiyatlı fiskal yanaşmanın və institusional qərarların məcmusudur. Bir çox ölkələr artan büdcə defisitləri, borclanma təzyiqləri və inflyasiya riskləri ilə üzləşdiyi halda, Azərbaycan fiskal siyasətdə balansı qorumağı bacaran nadir ölkələr sırasındadır. Bu balansın qorunması təkcə büdcə göstəriciləri ilə ölçülmür. Əsas məsələ iqtisadiyyata olan etimadın saxlanılması, dövlətin maliyyə öhdəliklərini vaxtında, dayanıqlı şəkildə həyata keçirməsidir. Məhz bu yanaşma iqtisadi sabitliyimizin əsas dayaqlarından biri olub".

#### İqtisadi inkişaf etimada əsaslanan münasibətlər ilə mümkün olur

Baş nazirin müavini bildirib ki, bu gün dövlət-biznes münasibətləri yeni mərhələyə qədəm qoyur. İqtisadi inkişaf yalnız inzibati tənzimləmə ilə deyil, etimada əsaslanan münasibətlər sistemi ilə mümkündür. Proqnozlaşdırıla bilən siyasət, aydın qaydalar və sabit yanaşma sahibkarlıq mühitinin əsas göstəriciləridir

Hökumətin məqsədi nəzarət funksiyasından tam imtina etmək və yaxud onu minimuma endirmək deyil, hədəf onu daha ağıllı, daha səmərəli və iqtisadi proseslərə uyğun formata çevirməkdir. "Kölgə iqtisadiyyatı"nın azaldılması da məhz bu sistemli və institusional yanaşmanın nəticəsi olaraq dəyərləndirilməlidir.

Büdcə-fiskal siyasətində prioritetlərin düzgün müəyyən edilməsi, xərclərin səmərəliliyi və qeyri-neft gəlir mənbələrinin gücləndirilməsi bu mərhələdə xüsusi əhəmiyyət daşıyır. Bu kontekstdə vergi siyasəti, vergiləri yalnız fiskal yığımların maksimallaşdırılması aləti kimi deyil, daha çox iqtisadi davranışları formalaşdıran, investisiya qərarlarına təsir göstərən və sosial balansı təmin edən mühüm vasitə kimi mövqeləndirilməlidir. Yəni vergilər və icbari sosial ödənişlər iqtisadi fəallığı boğmamalı, əksinə, onu mümkün dərəcədə təşviq etməli, eyni zamanda sosial öhdəliklərin maliyyələşdirilməsi və ictimai rifahın qorunması üçün etibarlı resurs bazasını yaratmalıdır.

#### Əmək münasibətlərinin şəffaflaşdırılması qeyri-rəsmi məşğulluğu azaldıb

İqtisadiyyat naziri Mikayıl Cabbarov deyib ki, ölkədə aparılan islahatların əsas məqsədlərindən biri vergi ödəyicilərinin dövlətə olan inamının artırılması və onların fəaliyyətində müsbət dəyişikliklərin təşviq edilməsidir. İqtisadi siyasətinin orta və uzunmüddətli perspektivdə əsas istiqamətləri qeyri-neft-qaz sektorunun genişləndirilməsi, əlverişli investisiya mühitinin formalaşdırılması, rəqəmsal həllərə söykənən rəqabətqabiliyyətli istehsalın və xidmətlərin təşviqi, dayanıqlı məşğulluq modelinin qurulmasıdır. Bu barədə iqtisadiyyat naziri M.Cabbarov qeyd edib ki, son illərdə həyata keçirilən dəyişikliklər vergi sisteminin səmərəliliyinin artırılması, şəffaflığın genişlənməsinə və vergi ödəyiciləri ilə dövlət arasında etimadın güclənməsinə yönəlib: "Vergi sistemində aparılan islahatlar ardıcıl xarakter daşıyır və bu proses xüsusilə 2017-ci ilin sonlarından daha intensiv mərhələyə keçib. Həyata keçirilən tədbirlər nəticəsində vergi inzibatçılığı təkmilləşdirilib, biznes mühitinin yaxşılaşdırılması və iqtisadi fəaliyyətin leqallaşdırılması istiqamətində mühüm addımlar atılıb. 2019-cu il yanvarın 1-dən qeyri-neft özəl sektorunda tətbiq olunan əməkhaqqı islahatı vergi sistemində aparılan dəyişikliklərin əsas elementlərindən biri olub. Layihə əmək münasibətlərinin şəffaflaşdırılmasına və qeyri-rəsmi məşğulluğun azaldılmasına mühüm töhfə verib və bu ilin əvvəlində layihənin icrası tamamlanıb.

#### Qeyri-neft vergi yığımları son 8 ildə 2,4 dəfə artıb

Nazir qeyd edib ki, 2025-ci ildə Azərbaycanda vergi daxilolmaları 16,4 milyard manat təşkil edib ki, bu da son illərin ən yüksək nəticəsi hesab olunur. "2025-ci ildə vergi daxilolmaları 2018-ci illə müqayisədə 2,2 dəfə, o cümlədən qeyri-neft-qaz sektoru üzrə 2,4 dəfə artıb. Ötən il vergi daxilolmalarının ümumi daxili məhsulda (ÜDM) payı 12,7 faiz, o cümlədən qeyri-neft-qaz sektoru üzrə vergi daxilolmalarının qeyri-neft-qaz ÜDM-də payı 13 faiz olub ki, bu da 2018-ci illə müqayisədə müvafiq olaraq 3,4 və 2,4 faiz bəndi artım deməkdir. 2025-ci ildə qeyri-neft-qaz sektorunun özəl bölməsi üzrə vergi daxilolmalarının ÜDM-də xüsusi çəkisi 2018-ci illə müqayisədə 2,2 faiz bəndi artaraq 9,9 faizə çatıb. Qeyri-neft-qaz sektorunun özəl bölməsində əmək münasibətlərinin leqallaşdırılması istiqamətində də əhəmiyyətli nəticələr əldə olunub. Belə ki, 2025-ci ildə bu sektorda əmək müqavilələrinin ümumi müqavilələrdə xüsusi çəkisi 2019-cu ildəki 38,5 faizdən 54,4 faizə yüksəlib. Həmçinin sektorda əmək müqavilələrinin sayı 1,9 dəfə artaraq 1 milyonu ötüb və dövlət sektorunun göstəricisini üstələməyə davam edir". Beləliklə, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi strategiyası çərçivəsində qeyri-neft-qaz sektoru iqtisadi artımın əsas drayverinə çevrilib.

#### Süni intellekt texnologiyalarına vergi stimulları artırılacaq

Nazirin sözlərinə görə, iqtisadiyyatın şaxələndirilməsində özəl sektor mühüm rol oynayır və bu istiqamətdə dövlət dəstəyi davam etdirilir. Son illərdə özəl sektora göstərilən dəstəyin əsas hissəsini vergi və gömrük güzəştləri təşkil edib. Həyata keçirilən tədbirlər ölkə iqtisadiyyatında mühüm struktur dəyişikliklərinə səbəb olub və özəl sektorun vergi daxilolmalarında payının artmasına gətirib çıxarıb. Belə ki, ötən il qeyri-neft-qaz özəl bölməsindən daxilolmalar qeyri-neft-qaz sektoru üzrə ümumi daxilolmaların 76 faizini təşkil edib.

Nazir qeyd edib ki, ölkədə rəqabətqabiliyyətli və innovasiyayönümlü biznes mühitinin formalaşdırılması istiqamətində İKT sektoru, startaplar, həmçinin yüksəkixtisaslı kadrlar üçün daha elastik vergi siyasətinin həyata keçirilməsi planlaşdırılır. Bu sahədə süni intellekt texnologiyalarının istifadəsinə istiqamətlənmiş vergi stimullarının artırılması əsas prioritetlərdən biri kimi müəyyən edilib. Həyata keçirilən tədbirlər Azərbaycanın yüksək texnologiyalara söykənən iqtisadi modelə transformasiyasını təmin etməyə yönəlib. Bu kontekstdə ölkədə artıq superkompüter mərkəzi fəaliyyətə başlayıb, rəqəmsallaşma sahəsində əhəmiyyətli layihələr icra edilir və insan kapitalının bilik və bacarıq potensialının gücləndirilməsi istiqamətində işlər davam etdirilir.

*E.CƏFƏRLİ*



# AMB: Geosiyasi gərginlik Azərbaycanda makroiqtisadi sabitliyə ciddi təhdid yaratmayacaq

Yaxın Şərq regionunda baş verən son hadisələr fonunda dollar indeksinin möhkəmlənməsi və bu şəraitdə manatın nominal effektiv bahalaşması ticarət tərəfdaşlarında inflyasiyanı neytrallaşdıra bilər.

Bu barədə "Report"un sorğusuna cavab olaraq Azərbaycan Mərkəzi Bankından (AMB) bildirilib.

Məlumata görə, AMB qlobal mühitdə baş verən prosesləri və onların qlobal enerji bazarlarında qiymətlərə təsirlərini davamlı izləyir: "Son hadisələrin qlobal enerji bazarında təklifin daralmasına və bu əsasda enerji məhsullarının qiymətinin artımına təsirləri ehtimal olunur. Neft və qaz qiymətləri üzrə mövcud - fevral fərziyyələri yenilənərsə, AMB bu məlumatları ictimaiyyətlə bölüşəcək".

Tənzimləyici qurumdan qeyd edilib ki, qlobal enerji qiymətləri ticarət tərəfdaşlarında, xüsusilə də enerji idxalçı olan ölkələrdə istehsal xərclərinə təsir göstərir: "Neft və qaz qiymətləri üzrə davamlı artım müşahidə olunarsa, ticarət tərəfdaşlarında inflyasiya arta bilər. Lakin son hadisələr fondunda dollar indeksinin möhkəmlənməsi və bu şəraitdə manatın nominal effektiv məzənnəsinin artması ticarət tərəfdaşlarında inflyasiyanın artımını neytrallaşdıra bilər".

AMB-nin Azərbaycan neftinin qiyməti ilə bağlı proqnozlarına hər hansı dəyişiklik edib-etməyəcəyinə gəlincə belə qeyd edilib: "Əvvəlki dövrlərin təcrübəsi göstərir ki, müvafiq proseslərin qlobal dəyər zəncirinə təsirlərinin qalıcı və keçici olduğunu müəyyən etmək üçün bir qədər vaxt və əlavə təhlillər lazımdır. Hazırda AMB baş verən proseslərin qlobal əmtəə və xidmətlər bazarlarının müxtəlif seqmentlərinə, xüsusilə də Azərbaycan neftinin qiymətinə və idxal olunan ərzaq qiymətlərinə təsirini qiymətləndirir, zəruri olduğu halda özünün yanvar fərziyyələri üzrə müvafiq dəqiqləşmələr aparacaq".

Qurum həmçinin bəyan edib ki, enerji qiymətlərinin artımı tədiyə balansının cari hesablar hesabına əsasən iki istiqamətdə təsir göstərir: "Gəlir kanalı üzrə ixrac gəlirlərimiz artır, xərc kanalı üzrə əmtəə və xidmət idxalı genişlənir. Əlbəttə ilkin və təkrar gəlirlər balansına da təsirlər olur. Lakin əsas təsirlər əmtəə və xidmət üzrə olur. Baş verən proseslərin neft və qazın qiymətinə artım istiqamətində təsir edəcəyi barədə fikir söyləmək üçün qiymətləndirmələr davam etdirilməlidir".

Qeyd edilib ki, cari əməliyyatlar balansının (CƏB) profisiti valyuta bazarında sabitliyin əsas amili kimi çıxış edir: "AMB-nin proqnozlarına görə 2026-2027-ci ildə də CƏB-in profisitli olacağı gözlənilir. Neft və qazın qiyməti artarsa, bu profisitin genişlənməsi yüksək ehtimal olunur".

AMB-nin məlumatında vurğulanıb ki, hazırda maliyyə sektoru stabildir, maliyyə bazarları stabil fəaliyyət göstərir: "Ümumilikdə maliyyə sektorunun bütün göstəriciləri, xüsusilə də kapital adekvatlığı və likvidlik mövqeyi normativləri əhəmiyyətli üstələyir, kredit portfelinin keyfiyyəti üzrə müsbət dinamika müşahidə olunur və dollarlaşma göstəriciləri tarixi minimuma çatıb".

Bildirilib ki, neft qiymətlərinin yüksək səviyyədə qalmasının valyuta ehtiyatlarının idarə olunması strategiyasına təsirinin müsbət olacağı ehtimal olunur.

"Son proseslərin ölkədə makroiqtisadi sabitlik və maliyyə sabitliyi üzrə hər hansı bir ciddi təhdid yaradacağını ehtimal etmirik. Bu, baş verərsə əvvəlki illərin təcrübəsi əsasında deyə bilər ki, AMB hökumətlə birlikdə effektiv şəkildə bu təhdidlərə qabaqlayıcı reaksiya verəcək", - AMB-nin məlumatında vurğulanıb.

# Bank sektorunda canlanma: Kredit qoyuluşları artsa da, faizlər aşağı düşmür

Azərbaycanda təmin edilmiş sağlam və münbit investisya mühiti ölkə iqtisadiyyatına yönələn sərmayələrin və kapital axınlarının artmasına səbəb olmaqdadır. Ötən ildə əhəmiyyətli həcmlərdə iqtisadiyyata yatırılan sərmayə qoyuluşları 2026-cı ilin ilk aylarında da davam edib. Cari ilin ilk ayında əsas kapitala 1 milyard 405,9 milyon manat məbləğində, yaxud əvvəlki ilin yanvar ayı ilə müqayisədə 75,6 faiz çox investisiya yönəldilib. Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 78,3 faiz, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 73,9 faiz artıb. İnvestisiyanın 758,6 milyon manatı və ya 54 faizi məhsul istehsalı sahələrinə, 551 milyon manatı xidmət sahələrinə, 96,3 milyon manatı isə yaşayış evlərinin tikintisinə sərf olunub. Kapital qoyuluşlarının 1 milyard manatı və ya 71,4 faizini daxili investisiyalar təşkil edib.

Qeyd edilən dövrdə iqtisadiyyata kredit qoyuluşları da əhəmiyyətli həcmdə artıb və yanvarda kreditlərin həcmi 31 milyard 863,7 milyon manat təşkil edib. Bu, 2025-ci ilin fevralın 1-nə nisbətən isə 8,7 faiz çoxdur. Kredit qoyuluşunun 22 milyard 142,7 milyon manatı və yaxud 69,5 faizi özəl bankların payına düşüb. Bu, bir il əvvələ nisbətən 9,1 faiz çoxdur. Dövlət banklarının kredit qoyuluşu 7 milyard 837,3 milyon manat təşkil edib ki, illik müqayisədə 8,7 faiz artım deməkdir. İl ərzində dövlət banklarının ümumi kredit qoyuluşundakı xüsusi çəkisi 24,6 faiz olub. Bank olmayan kredit təşkilatlarının (BOKT) kredit qoyuluşu 1 milyard 883,7 milyon manat olub. Bu, illik müqayisədə 4 faiz çoxdur.

## Depozit portfeli 41 milyard manatı ötüb

Yanvarda bankların depozit portfeli 41 milyard 319,6 milyon manat təşkil edib ki, bu, 2025-ci ilin fevralın 1-nə nisbətən isə 2,8 faiz çoxdur. Bunun 47,8 faizi yaxud 19 milyard 762 milyon manatı qeyri-maliyyə təşkilatlarının payına düşüb.

Ev təsərrüfatlarının əmanətləri 13,4 faiz artaraq 16 milyard 666,6 milyon manata, maliyyə təşkilatlarının depozitləri isə 31,5 faiz artaraq 4 milyard 891 milyon manata çatıb. Hesabat dövründə cəmi depozitlərin 21 milyard 550,5 milyon manatı qısamüddətli, 19 milyard 769,2 milyon manatı isə uzunmüddətli olub.



Kənd təsərrüfatı sahəsinin kreditləşdirilməsi də son aylarda artım tempi nümayiş etdirməkdədir. Fevralın 1-nə olan məlumata görə, aqrar sektora yönələn kreditlərin həcmi 2 milyard 70 milyon manata çatıb. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 293,5 milyon manat və ya 16,5 faiz artım deməkdir.

Yeri gəlmişkən, ötən dövrdə bank sektorunun "yaşıl layihə"lərə də kredit qoyuluşları artıb. Mərkəzi Bank tərəfindən ötən il təsdiqlənmiş "Yaşıl Taksonomiya" sənədi ölkədə dayanıqlı maliyyə ekosisteminin formalaşdırılması, daxili və xarici resursların yaşıl və dayanıqlı layihələrə yönəldilməsi, iqlim dəyişikliyindən yaranan risklərin tənzimlənməsi, aşağı karbon iqtisadiyyatına keçid ilə bağlı önə çıxan layihələrə dəstək verilməsini nəzərdə tutur. Məhz bu prinsiplərə uyğun olaraq bank sektoru bərpa olunan enerji, su resurslarının dayanıqlı idarə edilməsi, çirklənmənin qarşısının alınması və ona nəzarət, dayanıqlı kənd təsərrüfatı, fermer təsərrüfatı, biomüxtəliflik və mühafizə, "yaşıl binalar" və dayanıqlı inşaat, "yaşıl nəqliyyat" sahələrinə kreditləşməni artırıb.

Tikinti sahəsinə yönələn kreditlərin ümumi həcmi 1 milyard 712,8 milyon manat olub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 340,7 milyon manat və ya 24,8 faiz artım deməkdir.

## Banklar müştərilərə verdiyi kreditlərdən 356 milyon manat qazanıb

Kredit bazasının genişlənməsi bankların da gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olub. Fevralın 1-nə qədər bankların müştərilərə verdiyi kreditlərdən əldə etdiyi faiz gəlirləri 356,3 milyon manat təşkil edib. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 61,4 milyon manat və ya 20,8 faiz artım deməkdir. Kreditlərdən gəlirlər bankların cəmi faiz gəlirlərinin böyük hissəsini. təxminən 80 faizini təşkil edir.

Göründüyü kimi bankların kreditlər üzrə faiz gəlirləri kifayət qədər çoxdur. Bu, rəqəm həm də ona dəlalət edir ki, kreditlərin faiz dərəcələrinin yüksək olması banklar üçün kifayət qədər gəlir əldə etməyə imkan verir. Yəni son bir ildə kredit faizləri nəinki aşağı salınıb, hətta yüksəlib. Halbuki bankların faizləri aşağı salmaqla, yenə də gəlir əldə etmək potensialları var. Mərkəzi Bankın uçot dərəcəsini aşağı salması, bankların kredit portfelinin böyüməsi faizləri artırmağa yox, azaltmağa imkan yaradır. Hazırda ölkə üzrə kreditlərin orta faizi isə 17-18 faizdir. Hətta, bundan yüksək faiz dəhlizi mövcuddur, xüsusilə də regionalrda 19 faizə çatır. Məsələn, Dağlıq Şirvanda 19,67, Qarabağda 19.32, Mil-Muğan iqtisadi rayonunda 19,13, Lənkəran-Astara iqtisadi rayonunda 19,1, Şirvan-Salyan iqtisadi rayonunda 18,75, Mərkəzi Aranda 18,59, Qazax-Tovuz iqtisadi rayonunda 18,42 faizdir.

Reallıq ondan ibarətdir ki, banklar dövlətin verdiyi resurslar hesabına, yəni Sahibkarlara Kömək Fondu və digər dövlət mənbələri ilə güzəştli kreditlərdən başqa, öz resursları hesabına 5 dəfə daha çox real sektora ucuz fazilərlə kredit yönəldə bilər. Mövcud iqtisadi şərait, bank sektorunun vəziyyəti, həyata keçirilən kredit siyasəti və digər amillər isə bank kreditlərinin bahalaşmasını deyil, əksinə daha da aşağı salınması diqtə edir. Ona görə də, banklar kredit faizlərini daha da aşağı salmalı, iqtisadi dəyər yaradan sahələrin təşviqində güzəştli kredit həcmlərini və çeşidlərini artırmalıdır.

*ELBRUS*

# Milli süni intellekt platforması

## "Sozly" süni intellekt infrastrukturunun formalaşmasına töhfə verəcək

Azərbaycanda dövlət qurumları və iri şirkətlər (B2G/B2B) üçün nəzərdə tutulmuş "Sozly" multimodal süni intellekt platforması istifadəyə verilib. Qlobal süni intellekt alətlərindən (ChatGPT və s.) fərqli olaraq, "Sozly" məxfi sənədlərin xarici "bulud" serverlərinə sızması təhlükəsini kökündən həll edir. Sistem internet bağlantısı tələb etmədən, tam oflayn rejimdə yalnız daxili lokal serverlərində (on-premise) çalışır. Bu da məlumat sızıntısı riskini 0 faizə endirir. "Sozly" idarəetmə və korporativ mühitdə süni intellekt texnologiyalarının təhlükəsiz, lokal və məxfi şəkildə tətbiqi üçün hazırlanmış platformadır. Birbaşa yerli mühəndislər tərəfindən ərsəyə gətirilən və Azərbaycan dilinin "milli şüurunu" qoruyan bu sistemin gücü qlobal səviyyədə də təsdiqlənib.

Milli ekosistem qlobal süni intellekt nəhəngi olan NVIDIA tərəfindən də dəstəklənib və şirkət Azərbaycanın rəqəmsal platformasının potensialını dəyərləndirərək "Sozly"nü rəsmən "NVIDIA Inception program"ına üzv qəbul edib.

## "Sozly"nün əsas funksiyası və imkanları necədir?

"Sozly Knowledge" süni intellekt brendi müəssisələrin daxili "Word", "PDF" və digər faylları əsasında işləyən, Azərbaycan dilində yüksək dəqiqliklə cavab verən, təhlükəsiz və tam oflayn bilik bazası və sual-cavab sistemi kimi fəaliyyət göstərəcək.

Yeni texnoloji platforma səsi mətnə çevirən (speech-to-text), oflayn rejimdə ağıllı xülasə və parafraz analitikası təqdim edən, Azərbaycan dilində müxtəlif ləhcə və tələffüz variasiyalarını mükəmməl anlaya bilən NLP əsaslı modellərlə çalışan süni intellekt sisteminin modullarını təmin edəcək. Eləcə də məxfi sənədlərin təhlükəsizliyini tam qoruyaraq, 52 dil arasında enterprise səviyyəli, yüksək dəqiqlikli və real vaxt rejimində lokal server üzərində işləyən, tam oflayn avtomatik tərcümə xidməti təqdim edən həll bazası olacaq.

"Sozly Grammar" texnologiası isə Azərbaycan dilində rəsmi və korporativ mətnlərdəki qrammatik və orfoqrafik səhvləri yüksək dəqiqliklə aşkarlayan, tam oflayn rejimdə redaktə və stil təkmilləşdirmə təklifləri verən süni intellekt əsaslı dil yoxlama sistemi kimi xidmətlər göstərəcək. Bundan başqa, vizual analitika bloku üzrə sistem təhlükəsizlik kameralarından alınan vizual məlumatları, video və şəkilləri indeksləşdirərək, üz və obyekt tanıma funksiyaları ilə arxiv axtarışını saniyələrə endirmək imkanına malikdir. Bununla yanaşı, sistemdə infrastruktur qayğısı olmayacaq ki, bu da müəssisələr üçün ən böyük üstünlük sistemin mürəkkəb server otaqları tələb etməməsidir. Belə ki, "Sozly" müasir çiplərlə təchiz olunmuş "hazır qutu" həlli kimi birbaşa daxili şəbəkəyə qoşula bilir.

Hazırda bir sıra dövlət qurumları tərəfindən uğurla test edilən milli intellekt ekosistemi ilə yaxından tanış olmaq və demo sifariş etmək üçün "www.sozly.ai" elektron resursuna qoşulmağa başlayıb.

Beləliklə, Azərbaycanlı mütəxəssislər tərəfindən hazırlanmış "Sozly" platforması yerli bazarın real ehtiyaclarına cavab verməklə, regionda təhlükəsiz və lokal süni intellekt infrastrukturunun formalaşmasına töhfə verəcək.

2026-cı il ərzində digər süni intellekt platforması - "Concierge"nin yaradılması da nəzərdə tutulur. Yeni platforma xarici ölkələrdən Azərbaycana gələn şəxslər üçün süni intellekt həlli deməkdir. Platformanın əsas məqsədi ölkəyə gələn əcnəbilərin informasiya əldə etmə prosesini sadələşdirmək və dövlət xidmətlərinə çıxışı daha operativ etməkdir. Məqsəd müxtəlif qurumların təqdim etdiyi məlumatları bir mərkəzdə toplamaq və süni intellekt vasitəsilə daha aydın, strukturlaşdırılmış formada çatdırmaqdır.

## 70 milyon manat dəyərin yaradılması planlaşdırılır

Ötən il qəbul edilmiş "Süni İntellekt Strategiyası" sənədinə əsasən, ölkəmizdə süni intellekt sahəsində inkişafını sürətləndirmək, rəqəmsal inkişafı dəstəkləmək və qlobal süni intellekt ekosistemində Azərbaycanın rolunu gücləndirmək hədəflənir.

Strategiyanın əsas məqsədləri sırasında qeyd edilən sahədə innovasiya və rəqəmsal inkişafın təşviqi, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, süni intellekt əsaslı məlumat idarəetməsi-

SOZLY

Azərbaycan dilini tam dəstəkləyən, oflayn, təhlükəsiz, sürətli multimodal süni intellekt platforması

nin təşkili, ixtisaslı kadr hazırlığı, bilik və bacarıqların genişləndirilməsi, dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi, məlumat təhlükəsizliyi və etik qaydalara əsaslanan idarəetmə mexanizmlərinin qurulması yer alır.

Süni intellektin inkişafı üçün əsas infrastruktur tədbirləri çərçivəsində yüksəksəviyyəli hesablama resurslarının qurulması, açıq məlumat bazalarının yaradılması və süni intellektin müxtəlif istiqamətlərdə, xüsusilə Təbii Dil Emalı texnologiyalarında tətbiqi nəzərdə tutulur. Həmçinin süni intellekt sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə dəstək mexanizmlərinin genişləndirilməsi, o cümlədən güzəştli kreditlərin verilməsi ilə bağlı tədbirlər görüləcək.

Yeni strategiyanın icrası Azərbaycanı süni intellekt texnologiyalarının inkişafı sahəsində regionda liderlər sırasına daxil edəcək və ölkənin rəqəmsal inkişafına mühüm töhfə verəcək. Bu strategiya, həmçinin süni intellekt ekosisteminin formalaşdırılması və ölkənin qlobal süni intellekt platformalarında aktiv iştirakını təmin etmək üçün bir yol xəritəsi kimi çıxış edəcək.

Eləcə də, rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üzrə milli strategiya sənədinə əsasən, süni intellekt əsaslı həllər vasitəsilə 70 milyon manat dəyərin yaradılması planlaşdırılır. Bütün bu amillər Azərbaycanda robot və süni intellekt klasterlərinin yaradılması sahəsində bölgədə fiber-rəqəmsal habı formalaşdıracaq.

*E.CƏFƏRLİ*

# Qarşıdurma davam edir



## İran qonşu ölkələrdə otelləri hədəfə alır

Yaxın Şərqdə fevralın 28-dən start götürmüş qarşıdurma səngiməк bilmir. Bu arada İsrail İranı beynəlxalq konvensiya ilə qadağan olunmuş kasetli silahlardan istifadə etməkdə ittiham edib. İsrail Xarici İşlər Nazirliyinin bu bəyanatı "X" sosial şəbəkəsində dərc edilib. "İran havada partlayan və subsursatları geniş əraziyə səpələyən kaset başlıqlı raketlər atır", - məlumatda deyilir. XİN qeyd edib ki, bu silah növü nöqtəvi zərbələr üçün nəzərdə tutulmayıb, mümkün qədər daha çox hərbçi və mülki şəxsin öldürülməsi məqsədilə istifadə edilir.

**BƏƏ bombalandı - əcnəbi vətəndaşlar həlak olub...**

Martın 4-də Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) İranın hücumları nəticəsində üç əcnəbi - Pakistan, Nepal və Banqladeş vətəndaşları həlak olub. Bu barədə BƏƏ Müdafiə Nazirliyinin məlumatında bildirilib. Bundan əlavə, 78 nəfər yaralanıb ki, onların arasında da BƏƏ, Misir, Sudan, Efiopiya, Filippin, Pakistan, İran, Hindistan və digər ölkələrin vətəndaşları var.

Bağdad Beynəlxalq Hava Limanının (İraq) yaxınlığında yerləşən ABŞ səfirliyinin logistika mərkəzi də hücuma məruz qalıb. Bu barədə Qətərin "Al Araby" telekanalı İraqın təhlükəsizlik orqanlarındakı mənbəyə istinadən məlumat yayıb. İranın dövlət teleradio şirkəti isə iddia edir ki, Bağdad hava limanı yaxınlığındakı ABŞ-nin Viktoriya düşərgəsi ərazisində partlayış səsləri eşidilib.

Bundan başqa, Ərbildə yerləşən ABŞ hərbi bazasına pilotsuz uçuş aparatının zərbə endirdiyi anın videogörüntüləri yayılıb. Sosial şəbəkələrdə yayılan kadrlarda gecə saatlarında bazanın hava hücumundan müdafiə sistemi olan C-RAM kompleksinin ardıcıl atəş açdığı görünür.

**Küveytdə daha bir otelə hücum...**

SEPAH Küveytdə yerləşən bir hotelə zərbə endirdiyini açıqlayıb. SEPAH-ın yaydığı məlumata görə, zərbə endirilən binada ABŞ hərbçiləri yerləşdirilib. İran tərəfi həmin obyektin hərbi məqsədlərlə istifadə olunduğunu iddia edir. Hələlik Küveyt rəsmiləri və ABŞ tərəfindən məsələ ilə bağlı rəsmi açıqlama verilməyib. Qeyd edək ki, Yaxın Şərqdə gərginliyin artdığı bir vaxtda bölgədə ABŞ hərbçilərinin yerləşdiyi bir sıra obyektlərin hədəfə alındığı barədə məlumatlar yayılır.

**İran yenidən atəşə başladı...**

İran dövlət televiziyası ölkənin yeni raket hücumları dalğasına başladığını açıqlayıb. Məlumata görə, İran ordusu İsrail ərazisinə, eləcə də ABŞ-ın regiondakı hərbi obyektlərinə qarşı genişmiqyaslı hücum həyata keçirir. Hücumlar çərçivəsində həm ballistik raketlərdən, həm də pilotsuz uçuş aparatlarından istifadə olunduğu bildirilir. İranın rəsmi açıqlamasında qeyd edilir ki, zərbələr əsasən İsraildəki hərbi obyektlərə, həmçinin ABŞ-ın Bəhreyn və Küveytdə yerləşən hərbi bazalarına yönəlib.

İran Beyrutdakı (Livanın paytaxtı) diplomatik missiyasına hücum ediləcəyi təqdirdə, bütün dünyada İsrail səfirliklərinə zərbələr endirəcəyini bildirib. Bu barədə İran Silahlı Qüvvələrinin rəsmi nümayəndəsi Əbülfəz Şəkərçi bildirib. "İsrail Livandakı İran səfirliyinə hücum etməklə hədələyib. Əgər İsrail bunu edərsə, bu ölkənin bütün səfirlikləri bizim üçün qanuni hədəfə çevriləcək", - Ə.Şəkərçi deyib.

**5 mindən çox döyüş sursatı**

İsrail Hərbi Hava Qüvvələri (HHQ) İrandakı obyektlərə zərbələr zamanı 5 mindən çox döyüş sursatından istifadə edib. Bu barədə İsrail Müdafiə Ordusu məlumat yayıb. "İsrail HHQ əməliyyat başlayandan bəri (28 fevraldan - red.) İrandakı obyektlərə 5 000-dən çox döyüş sursatı ilə zərbə endirib", - məlumatda bildirilib. Bəyanatda, həmçinin qeyd olunub ki, İsrail HHQ İran ərazisində, xüsusilə Tehranda İsrail ordusunun hava üstünlüyünü genişləndirməyə davam edir.

Bundan başqa, İsrail Müdafiə Ordusu Tehranın şərq hissəsində yerləşən, bir neçə komanda mərkəzi və daxili təhlükəsizlik bölmələrinin olduğu İranın iri hərbi kompleksinə genişmiqyaslı zərbə endirib. İsrail Müdafiə Ordusunun məlumatına görə, kompleksdə İranın əsas güc strukturlarının, o cümlədən İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH), Kəşfiyyat İdarəsi, "Bəsicin", "Qüds qüvvələri", daxili təhlükəsizlik bölmələri və kiberqoşunların qərargahları yerləşib. Bundan başqa, orada daxili etirazların yatırılmasına və əhaliyə nəzarətə rəhbərlik edən bölmə fəaliyyət göstərib.

Bildirilib ki, əməliyyat İsrail kəşfiyyatının dəqiq məlumatlarından istifadə edilməklə həyata keçirilib və İranın hərbi potensialının daha da zəifləldilməsinə yönəlib.

**Hörmüz boğazında təhlükə...**

İran cəmisi iki gəmiyə Hörmüz boğazından keçməyə icazə verib. Bu barədə SEPAH-ın Hərbi Dəniz Qüvvələrinin nümayəndəsi bildirib. "Müharibənin birinci günü biz iki tankeri, ikinci gün isə ABŞ-nin Hörmüz boğazından keçməyə təmin etdiyi və dəstəklədiyi bir neçə gəmini vurduq. Hörmüz boğazından keçərkən İranın qaydalarını pozan gəmilər vurulub. Müharibənin dördüncü günündən bəri Hörmüz boğazından heç bir hərəkət baş vermir. Üçüncü gün yalnız iki gəmi, dost ölkələrin gəmiləri İranın icazəsi və təsdiqi ilə keçib", - o deyib.

**Heç bir variant istisna edilmir**

ABŞ-ın İrandakı hərbi planları hazırda bu ölkədə quru qüvvələrinin istifadəsini əhatə etmir, lakin bu ehtimalı istisna etmək olmaz. Bu barədə Ağ Evin mətbuat katibi Kerolayn Livit jurnalistlər üçün keçirilən müntəzəm brifinqdə bildirib. "Bu, hazırkı planların bir hissəsi deyil, amma prezidentin adından heç bir variantı istisna etməyəcəyəm", - deyə o, məsələ ilə bağlı suala cavab olaraq bildirib. Bundan əvvəl ABŞ lideri Donlad Tramp "lazım gələrsə, İrana quru qoşunları göndərilə bilər" ifadəsini işlədib.

**Saatlıq dəyəri 9,16 milyon, gündəlik dəyəri isə təxminən 220 milyon dollar...**

Yaxın Şərq müharibəsi isə artıq həm də iqtisadi nəticələr göstərməyə başlayıb. Xarici KİV-lərin yazdığına görə, əməliyyatların ilk 24 saatında istifadə edilən sursat, qırıcı təyyarələrin uçuşlarının dəyəri və bölgəyə hərbi göndərişlər milyardlarla dollar xərclənib. Qeyd olunub ki, ABŞ ordusu İrana qarşı hərbi əməliyyatın ilk 24 saatında təxminən 779 milyon dollar xərcləyib. Eyni zamanda təyyarələrin və onlarla dəniz gəmisinin bölgədə yerləşdirilməsi əlavə 630 milyon dollara başa gəlib. Regiondakı hər bir təyyarədaşıyan qrupunun gündəlik istismar xərcləri təxminən 6,5 milyon dollardır. İlk gündən bəri ümumi xərc təxminən 2.276.000.000 dollar təşkil edib. Vurğulanıb ki, müharibənin saatlıq dəyəri 9,16 milyon dollar, gündəlik dəyəri isə təxminən 220 milyon dollardır.

**SEPAH hava limanını hədəf aldı**

SEPAH Tel-Əviv yaxınlığındakı Ben-Qurion Beynəlxalq Hava Limanına raket hücumu təşkil edib. Bu barədə korpusun mətbuata açıqlamasında bildirilib. Bəyanatda deyilib ki, İran ordusu İsrailin Müdafiə Nazirliyinin binasında və Ben-Qurion Beynəlxalq Hava Limanında strateji hədəflərə qarşı hipersəs raketlər və dronlardan istifadə edərək hücum təşkil edib.

**KƏŞ yığılır...**

Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) və Avropa İttifaqının xarici işlər nazirləri təcili onlayn görüş keçirəcəklər. Bu barədə şura məlumat yayıb. Görüşdə Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas iştirak edəcək. Danışıqların əsas mövzuları İranın Körfəz Əməkdaşlıq Şurasına üzv ölkələrə qarşı təcavüzünün nəticələri, regionda baş verən ciddi hadisələr və onların bütün dünyaya mənfi təsiri olacaq. Şuranın baş katibi Casim Məhəmməd əl-Budeyvinin sözlərinə görə, qurumun məqsədi beynəlxalq ictimaiyyəti müharibəyə son qoymaq üçün öhdəliklərini yerinə yetirməyə təşviq etməkdir.

**Tankerə zərbə endirilib**

İran silahlı qüvvələri Fars körfəzinin şimalında ABŞ tankerinə zərbə endirib. Bu barədə İran dövlət teleradio şirkəti İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) bəyanatına istinadən məlumat yayıb. "Raket Fars körfəzinin şimalında ABŞ tankerinə dəyib. Tanker bu gün səhər Fars körfəzinin şimalında SEPAH-ın dəniz piyadaları tərəfindən vurulub və hazırda yanır. Biz daha əvvəl bəyan etmişdik ki, beynəlxalq qanunlara və qərarlara uyğun olaraq, müharibə dövründə Hörmüz boğazından keçidə nəzarəti İran İslam Respublikası həyata keçirəcək", - məlumatda qeyd olunub.

**75 raket və 123 PUA məhv edilib**

Bəhreynin Hava Hücumundan Müdafiə (HHM) sistemləri ABŞ və İsrailin əməliyyata başlamasından, yəni 28 fevraldan bəri İranın 75 raket və 123 pilotsuz uçuş aparatını (PUA) məhv edib. Bu barədə krallığın müdafiə qüvvələrinin baş komandanlığının məlumatında deyilir. "Bəhreynin müdafiə qüvvələrinin HHM sistemləri 75 raket və 123 pilotsuz uçuş aparatını məhv edib", - məlumatda qeyd olunub.

**Raket anbarları vurulur...**

İsrail Müdafiə Ordusu bəyan edib ki, Tehranın mərkəzi hissəsindəki obyektlərə zərbələr endirməyə davam edir. İsrail ordusunun mətbuat xidmətinə istinadən xəbər verir ki, artıq bir neçə raket anbarı məhv edilib. "İsrail Müdafiə Ordusu rejimin raket kompleksi infrastrukturuna zərbələr endirib. Tehrandakı hədəflərdən biri İranın ballistik raketləri saxlamaq üçün istifadə etdiyi yeraltı obyekt, eləcə də təyyarələri vurmaq üçün nəzərdə tutulmuş raket anbarları olub. Bundan əlavə, İsrail dövləti və onun vətəndaşları üçün real təhlükə yaradan bir neçə buraxılış qurğusuna zərbələr endirilib", - bəyanatda bildirilib.

İsrail ordusundan bildirilib ki, hücumlar zamanı Hərbi Hava Qüvvələrinin qırıcısı bir qrup İran hərbçisinin yerini aşkarladıqdan sonra onların hamısını öldürüb.

**Vaşinqtonun məqsədi...**

ABŞ prezidenti Donald Trump İrana qarşı keçirilən hərbi əməliyyatla bağlı yeni açıqlama verib. Tramp əməliyyatın nəticələrini yüksək qiymətləndirdiyini bildirib. ABŞ lideri jurnalistlərin suallarını cavablandırarkən əməliyyatın effektivliyinə diqqət çəkib. Onun sözlərinə görə, bu əməliyyat gözləniləndən də uğurlu olub. "Biri məndən soruşdu ki, bunu 1-dən 10-a qədər olan şkala üzrə necə qiymətləndirirdiniz? Mən dedim - təxminən 15", - deyə Tramp bildirib.

ABŞ prezidenti əlavə edib ki, Vaşinqtonun məqsədi İranın təhlükəli hərbi və nüvə potensialının qarşısını almaqdır. Trampın sözlərinə görə, İranın bu imkanları əldə etməsinə icazə verilsəydi, həmin güc ABŞ və müttəfiqlərinə qarşı istifadə oluna bilərdi. "Bu, nəzarətdən çıxmış bir millətdir. Əgər biz onlara imkan versəydik, onlar bu silahları bizə qarşı istifadə edərdilər", - deyə ABŞ prezidenti vurğulayıb.

**Data mərkəzləri hədəfdə...**

İranın Körfəz bölgəsində yerləşən data mərkəzlərinə zərbə endirdiyi bildirilib. Reuters agentliyinin məlumatına görə, "Amazon Web Services"ə (AWS) məxsus BƏƏ-dəki iki obyekt birbaşa zərər görüb, Bəhreyndə yerləşən data mərkəzi isə yaxınlıqda baş verən zərbə nəticəsində zədələnib. Məlumata əsasən, hadisə nəticəsində şirkətin region üzrə bulud xidmətlərində fasilələr yaranıb. Nasazlıqlar Körfəz ölkələrinin bank sektoruna və iri şirkətlərin istifadə etdiyi rəqəmsal infrastruktur sistemlərinə təsir göstərib. Bildirilir ki, bir sıra maliyyə xidmətlərində müvəqqəti dayanmalar və gecikmələr qeydə alınıb. AWS müştərilərinə xidmətlərin sabitliyini bərpa etmək üçün sistemlərini müvəqqəti olaraq digər regionlara köçürməyi tövsiyə edib. Regionun rəqəmsal infrastrukturuna zərbələr iqtisadi və maliyyə sabitliyi üçün ciddi risk yarada bilər.

**Qətər İran təyyarələrini zərərsizləşdirdi**

Qətər Hərbi Hava Qüvvələri Yaxın Şərqdəki Amerika qoşunlarının yerləşdiyi ən böyük hərbi bazaya zərbə endirməzdən bir neçə dəqiqə əvvəl İran bombardmançı təyyarələrini vurub. Bu barədə CNN öz mənbələrinə istinadən məlumat yayıb. Nəşrin məlumatına görə, İran 10 min ABŞ əsgərinin yerləşdiyi Əl-Udeid hava bazasına və Qətər iqtisadiyyatının onurğa sütunu olan əsas qaz emalı zavodu Ras Laffana 2 Su-24 taktiki bombardmançı təyyarəsi göndərib.

Mənbələrdən biri bildirib ki, İran təyyarələri hədəfə çatmağa cəmi "iki dəqiqə" qalmış vurulub. Digər mənbə CNN-ə açıqlamasında təyyarələrin vizual olaraq tanındığını və fotoşəkillərinin çəkildiyini, qırıcıların "bomba və idarə olunan döyüş sursatları ilə" gəldiyini bildirib. Təyyarələr radarların aşkarlamaması üçün çox aşağı hündürlükdə uçublar və radio xəbərdarlıqlarına cavab verməyiblər. "Vaxt məhdudiyyətləri" və "mövcud sübutlar" əsasında bu təyyarələr "düşmən" kateqoriyasına daxil edilib. Nəticədə Qətər HHQ-nin F-15 qırıcısı hər iki təyyarəni vurub. İran təyyarələri Qətərin ərazi sularına düşüb, ekipajların axtarışı davam edir. CNN bildirir ki, bu hadisə Qətər HHQ-nin ilk dəfə havada döyüş əməliyyatında iştirakı və təyyarələrin İrana qarşı istifadə olunmasıdır.

**Fransanın ardından Böyük Britaniya**

London Yaxın Şərqə qoşun göndərə və ABŞ-nin İrana zərbələrini dəstəkləyə bilər. Böyük Britaniya bu ssenarini nəzərdən keçirir, ancaq hələlik yekun qərarlar qəbul edilməyib. Adı çəkilməyən Qərb rəsmiləri hazırda qoşun göndərmək və ya zərbələrə qoşulmaq planlarının olmadığını vurğulayıblar. Lakin onlar vəziyyətin sürətlə dəyişdiyini və inkişaf etdiyini qeyd ediblər.

Xatırladaq ki, bir neçə gün öncə Fransa BƏƏ səmasında İran dronlarını vurmuşdu. Fransa xarici işlər naziri Jan-Noel Barro bildirmişdi ki, əməliyyat regiondakı mülki və hərbi obyektlərin təhlükəsizliyini təmin etmək məqsədilə həyata keçirilib. Fransız qüvvələri hücumları dəf edərək əlavə riskların qarşısını alıb. Qeyd edək ki, Fransa da region ölkələrindəki maraqlarını qorumaq üçün "Şarl de Qoll" aviadaşıyıcısını Yaxın Şərqə göndərib.

**P.İSMAYILOV**

# Türkiyəyə raket hücumu...

## Ankara qətiyyətlə bildirdi- bir daha təkrarlansa...

Xəbər verildiyi kimi, martın 4-də İrandan buraxılan və İraqla Suriya hava məkanından keçərək Türkiyə istiqamətində hərəkət edən ballistik raket Şərqi Aralıq dənizində yerləşən NATO-nun hava və raketdən müdafiə qüvvələri tərəfindən vaxtında aşkarlanaraq məhv edilib. Türkiyənin Milli Müdafiə Nazirliyi sursatın Hatayın Dörtyol rayonuna düşdüyünü açıqlayıb. Nazirliyin açıqlamasında bildirilib ki, "İrandan atılan və İraq və Suriya hava məkanını keçdikdən sonra Türkiyə hava məkanına doğru irəlilədiyi aşkarlanan ballistik sursat, Şərqi Aralıq dənizində yerləşdirilən NATO hava və raketdən müdafiə elementləri tərəfindən vaxtında atəşə tutulub və zərərsizləşdirilib. Hadisə nəticəsində ölən və ya yaralanan olmayıb. Ölkəmizin və vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək üçün iradəmiz və imkanlarımız ən yüksək səviyyədədir. Türkiyə regional sabitlik və sülhün tərəfində olsa da, təhlükənin kimdən və haradan gəlməsindən asılı olmayaraq, ərazisinin və vətəndaşlarının təhlükəsizliyini təmin etməyə qadirdir. Ərazimizin və hava məkanımızın müdafiəsi istiqamətində hər bir addım qətiyyətlə və tərəddüd etmədən atılacaq. Xatırladırıq ki, ölkəmizə qarşı hər hansı bir düşmən münasibətə cavab vermək hüququmuzu özümüzdə saxlayırıq".

Nazirlik bölgədə münaqişənin daha da yayılmasına səbəb olacaq addımlar atmaqdan çəkinməyə çağırış edib.

**İran səfiri XİN-ə çağırıldı**

Qeyd edək ki, hadisə baş verəndən sonra İranın Ankaradakı səfiri Məhəmməd Həsən Həbibullahzadə Xarici İşlər Nazirliyinə çağırılıb və ona Türkiyənin reaksiyası çatdırılıb. Səfirdən, həmçinin raketin buraxılışını izah etməsi istənilib.

Məsələ ilə bağlı İran Baş Qərargahı verdiyi açıqlamada Türkiyə ərazisinə hər hansı bir raket atıldığını inkar edib, Türkiyənin suverenliyinə hörmətlə yanaşdığını bildirib.

**5-ci maddə işə düşməyəcək...**

ABŞ-ın müdafiə naziri Pit Heyset isə bildirib ki, Türkiyəyə raket hücumu NATO-nun 5-ci maddəsini işə salmır. Biz bu konkret münaqişədən xəbərdarıq. Lakin bu, 5-ci maddəyə bənzər bir şeyin işə düşəcəyi anlamına gəlmir. Qeyd edək ki, NATO Nizamnaməsinin 5-ci maddəsinə görə, NATO-ya üzv dövlətə silahlı hücum bütün üzvlərə hücum hesab olunur və ölkələr buna qarşı ümumi mübarizəyə start verir.

NATO-nun məlum hadisə ilə bağlı bəyanatında bildirilir ki, "İranın Türkiyəni hədəf almasını pisləyirik və İranın bölgədə ayrı-seçkilik qoyulmadan davam edən hücumları qarşısında Türkiyə də daxil olmaqla müttəfiqlərimizin yanındayıq".

**Diplomatik trafik gücləndirildi - Fidan Rubio ilə danışdı**

Hadisədən sonra Türkiyə ilə İran arasında diplomatik və hərbi rabitə kanalları dərhal aktivləşdirilib. Xarici işlər naziri Hakan Fidan İranın xarici işlər naziri Abbas Əraqçi ilə telefonla danışıb. Məlumata görə, Fidan Türkiyənin reaksiyasını iranlı həmkarına çatdırıb və Tehranın münaqişənin yayılmasına səbəb ola biləcək hər hansı bir addımdan çəkinməli olduğunu bildirib. Hadisədən sonra Fidan Küveyt, İordaniya, Qətər, Səudiyyə Ərəbistanı, Misir, İndoneziya, Pakistan, İspaniya və Kanadadakı həmkarları ilə telefon danışıqları aparıb.

Hakan Fidan məsələ ilə bağlı ABŞ Dövlət katibi Marko Rubio ilə də telefonla danışıb - bölgədəki son vəziyyət qiymətləndirilib. ABŞ Dövlət Departamentinin açıqlamasına görə, Rubio Fidana Türkiyənin suveren ərazisinə hücumların qəbuledilməz olduğunu bildirib və ABŞ-ın tam dəstəyini ifadə edib.

**Prezident xəbərdarlıq etdi**

Prezident Ərdoğan dünən Xüsusi Əməliyyatlar Komandanlığında əsgərlərlə iftar proqramından sonra məsələ ilə bağlı açıqlamalar verib. Ərdoğan bildirib ki, "NATO müttəfiqlərimizlə sıx məsləhətləşmələr apararaq bütün lazımi tədbirləri görürük və lazım olduqda dərhal müdaxilə edirik. Oxşar hadisələrin bir daha baş verməməsi üçün xəbərdarlıqlarımızı ən aydın şəkildə edirik."

Prezident Ərdoğan sosial media hesabında da paylaşım edib.

**Fidan TBMM-də çıxış edəcək**

AK Partiya Qrup Sədrinin müavini Özləm Zəngin, xarici işlər naziri Hakan Fidanın martın 10-da bölgədəki hadisələrlə bağlı Türkiyə Böyük Millət Məclisinə məlumat verəcəyini açıqlayıb. Özləm Zəngin vurulan ballistik raket məsələsi ilə bağlı nazir Fidanla telefonla danışdığını bildirib: "Hakan Fidan gələn çərşənbə axşamı Türkiyə Böyük Millət Məclisinə məsələ ilə bağlı ətraflı məlumat verəcək".

**Türkiyə hücumlardan necə qorunur?**

Türkiyə mətbuatı yazır ki, regional gərginliyin artması və "ballistik raket diplomatiyasının" aktivləşdiyi dövrə qədəm qoyulub və Türkiyənin hava məkanının təhlükəsizliyi, ən vacib strateji gündəm maddələrindən birinə çevrilib. Yazıda Türkiyənini hava təhlükəsizliyinin təminatı ilə bağlı sistem haqqında qeyd edilib. Belə ki, müdafiənin birinci mərhələsi təhlükənin işə salındığı anda aşkarlanmasını təmin edir - Malatyanın Kürecik bölgəsində yerləşən və təxminən 1000 kilometr radiusu əhatə edən "AN/TPY-2" erkən xəbərdarlıq radarı bu sistemin "gözü" rolunu oynayır. İran, İraq və Suriya kimi ölkələrdən qalxan ballistik raketlər hələ yüksəliş mərhələsində olarkən bu radar tərəfindən izlənilir. Məlumatlar saniyələr ərzində Konyadakı NATO bazasındakı AWACS təyyarələrinə və Almaniyanın Ramşteyn şəhərindəki NATO Hərbi Hava Qüvvələrinə, eləcə də komandanlıq və idarəetmə mərkəzlərinə ötürülür. Burada təhlükənin trayektoriyası və təsir nöqtəsi hesablanır.

İkinci mərhələ həmin raketin və ya təhlükənin kosmosdan məhvidir. NATO-nun müdafiə arxitekturasında ən çəkindirici elementlərdən biri Şərqi Aralıq dənizində patrul xidməti həyata keçirən "Arleigh Burke" sinifli esminetslərdir. İspaniyanın Rota limanından yola düşən və hazırda bölgədə aktiv şəkildə fəaliyyət göstərən üç esminets (ikisi birbaşa Türkiyənin hava məkanını qorumaqla görəvləndirilib) dəniz əsaslı "Aegis" sistemindən istifadə edir. Qeyd edək ki, İrandan Türkiyəyə doğru atılan ballistik raket də məhz "Aegis" sisteminin daxilindəki "SM-3" tipli hava hücumundan müdafiə raketi tərəfindən zərərsizləşdirilib. "Exo-atmosfer tutma"nın bir hissəsi olaraq, Kürecikdən alınan məlumatlardan istifadə edərək atılan SM-3 tutucu önləyici raketlər atılan ballistik raketləri hələ kosmosda (atmosfer xaricində) olduqları zaman məhv etmək qabiliyyətinə malikdir.

Üçüncü mərhələ yaxın ərazi müdafiəsidir. Raketlər terminal mərhələsinə (aşağı hündürlükdə eniş mərhələsi) daxil olarsa, "nöqtə müdafiəsi" sistemləri işə düşür. NATO missiyasının bir hissəsi olaraq Adanadakı İncirlik yaxınlığında yerləşdirilən İspaniyanın 74-cü Hava Hücumundan Müdafiə Artilleriya Alayı bu müdafiənin son halqasını təmsil edir. "Patriot" (MIM-104 / PAC-3) batareyaları şəhərlərə və ya strateji obyektlərə yaxınlaşan təhdidləri məhv etməyə hazırdır. Nəhayət, 4-cü mərhələ milli müdafiə sistemidir - NATO arxitekturası yüksək səviyyədə təhlükəsizlik təmin etsə də, Türkiyə bu xarici asılılığı azaltmaq üçün öz daxili və milli sistemlərini yerləşdirib. "SİPER" uzun mənzilli hava hücumundan müdafiə sistemi Türkiyəyə yüksək imkanlar yaradır. "SİPER" tam fəaliyyətə başladıqdan sonra Türkiyə öz daxili sensor və əks tədbirlər şəbəkəsi ilə müttəfiq ölkələrə belə dəstəyini gücləndirəcək.



**Ankaranın qiymətləndirməsi...**

Türkiyə KİV-lərinin məlumatına görə, məsələ ilə bağlı Ankaranın qiymətləndirilməsi birmənalıdır - məsələ təcrid olunmuş bir raket parçası ilə məhdudlaşmır. Burada məsələ sərhəd təhlükəsizliyi, regional sabitlik və çəkindirmə ilə birlikdə, kompleks halda nəzərdən keçirilir. Bundan əlavə, mənbəyindən və ya əsaslandırılmasından asılı olmayaraq, hava məkanının hər hansı bir formada pozulması Türkiyənin milli təhlükəsizliyinə təhdid hesab olunur. Vurğulanır ki, Türkiyə qarşıdurma başlanan gündən diplomatiyaya üstünlük verən və gərginliyi azaltmağa çalışan bir mövqe tutub. Prezident Rəcəb Tayyib Ərdoğan böhran başlamazdan əvvəl diplomatik təmaslarında açıq şəkildə sakitliyə və dialoqa çağırışlar edib. Münaqişələr başladıqdan sonra lider diplomatiyası vasitəsilə atəşkəs və sabitliyə üstünlük verən bir xətt izləyib. Ankaranın qiymətləndirmələrinə görə, Türkiyənin prioriteti hücumların dayandırılması və daimi atəşkəsin yaradılmasıdır. Bununla belə, hərbi potensialı, kəşfiyyat dərinliyi və böhran idarəetmə imkanları ilə bütün ssenarilərə hazır olduğu vurğulanır. Milli təhlükəsizliyi təhdid edən heç bir cəhdin cavabsız qalmayacağı mesajı verilir.

ABŞ, İsrail və İran arasındakı gərginliyin əvvəlindən məsələnin dinc və diplomatik yolla həllini dəstəkləyən və münaqişələrdə tərəf olmayacağını bəyan edən Türkiyənin təxribatlara və dezinformasiyalara etibar etmədiyi vurğulanır. Qeyd olunur ki, Türkiyə müharibənin bir hissəsinə çevrilməyib, əksinə tərəfləri danışıqlar masasına qayıtmağa təşviq edir.

**P.İSMAYILOV**

# Həyatı özünə işlədən adam

## Çarlz Dikkensin "Devid Kopperfild" romanı haqqında

əvvəli ötən saylarımızda

Devid çarə tapmaq üçün vurnuxanda Doranın atasının qəfil ölümüylə çözüm fələkdən gəlir. Tezliklə üzə çıxır ki, mister Spenlounun da işləri bərbad imiş: ev-eşik əldən gedir, Dora bibilərinin yanına köçür, sosial statusu baxımından Devidə tay olur. Bundan sonra onların qovuşmağına psixoloji əngəl qalmır, ancaq Devid görür ki, doğmaları Doraya hələ də oyuncaq kimi baxırlar, heç qız özü də bu münasibətdən pəjmürdə deyil. Betsi nənəylə Doranın qohumları asanlıqla dil tapırlar. Həddibülüğa çatanda cavanlar evlənirlər. Ancaq bu xoşbəxtlik uzun sürmür, iki ildən sonra Dora heç böyümədən, yetişmədən dünyadan köçür...

Bu aralar mister Peqqoti Emlini tapır. İndi onun bir yolu qalıb: qızı da götürüb Avstraliyaya köçmək. Çünki orada heç kimin Emlinin keçmişindən xəbəri olmayacaq, qız ömrünü sıfırlayıb yeni həyata başlaya biləcək.

Qəlbitəmiz, həyatsevər Mister Mikober isə Uriya Hipin fırıldaqlarına alət olmaqdan bezib, vicdanı artıq onu rahat buraxmır, odur ki, Tredlsin köməyilə əfi ilanı ifşa eləyir. Mister Uikfildin adının üstündən ləkə silinir, Betsi nənənin də, qalan müştərilərin də sərvəti özlərinə qaytarılır, buna görə həm miss Trotvud, həm Devid mister Mikoberi mükafatlandırır.

Mikober ailəsi də Avstraliyaya köçməyi qərara alır, onlar da həyata sıfırdan başlamaq istəyirlər. Mister Uikfild firmasını ləğv eləyib sakitliyə çəkilir. Aqnes qız məktəbi açır.

***

Avstraliyaya üzən gəminin tərpəndiyi ərəfədə Yarmut sahillərində güclü fırtına qopur, dəniz Stirfordla Hemi batırır. Emlini bədbəxt eləyən adamla Emlinin bədbəxt elədiyi adam - zalımla məzlum əcəl şərbətini bir qabdan içir. Bu da, əlbəttə, rəmzi mahiyyət daşıyır, çünki zalım məzluma, məzlum da zalıma qırılmaz tellərlə bağlıdır, onlar qarşılıqlı surətdə bir-birini yaradır, sonra da öldürürlər. Onların mayası da bir torpaqdan götürülüb, əcəli də bir yerdən gəlir.

Onlar bir ortaq ölümün əlində can verirlər, bir ortaq ölümlə ölürlər. Onlar eyni həqiqətin bir-biriylə fasiləsiz əməkdaşlıq eləyən, bir-birində aramsız əks olunan, durmadan bir-birinə çevrilən bir cüt əkiz qütbünün simvoludur - biri yoxa çıxanda o birini də özüylə dartıb aparır. Ruh bədəndən qovulandan sonra aclıqdan, ya toxluqdan ölməyin nə fərqi var?..

Doranın ölümündən çox keçməmiş Devid uzun səfərə çıxır, dərdini azdırmaq üçün ölkələri, qitələri üç il sərgərdan dolanır. Jurnalistikadan ədəbiyyata adlayan Devid Kopperfild yazıçı kimi böyük şöhrət qazanır. Səfərini başa vurandan sonra Aqneslə evlənir, hər ikisi gec də olsa anlayır ki, onlar elə bir-birindən ötrü yaranıblar, indiyəcən bir-birini seviblər.

Vəfalı Peqqoti indi də Devidin uşaqlarına dayəlik eləyir. Betsi nənə axır ki, çoxdankı diləyinə çatır - Betsi Trotvud Kopperfild adlandırdığı qız nəvəsinin, daha doğrusu, nəticəsinin xaç anası olur.

Tredls də ailəsiylə məsud yaşayır. Mühacirlər Avstraliyada özlərinə yeni həyat qurublar - əlbəttə, bu əsərdə Avstraliya yalnız qitə adı deyil, pak arzuların, saf xəyalların vətənidir, günahlardan arınan, ya da ən azı arınmağa çalışan məsum ruhlara vəd olunmuş yaşıl cənnətdir.

Uriya Hip türmədədir - o da öz xislətinin cəhənnəmində nəfsinə zəncirlənib, vücudunun təkadamlıq kamerasında ömürlük əzaba məhkum olunub.

Beləcə, gözəlim həyat hər kəsi, hər nəsnəni öz yerinə oturdur...

Dikkensin optimizmi çox adama sadəlövh görünə bilər, ancaq mən bu optimizmə inanıram, bir şərtlə ki, Devid kimi həmişə ürəyin səsini dinşəyib qəlbin göstərdiyi səmtə dartınasan, ümidin ətəyindən əlini üzməyəsən. Çünki ürək nə bilirsə, düz bilir, nə eləyirsə, haqq eləyir, yiyəsini heç bir zaman yanıltmır. Ümid də ki, qəlbin bələdçisidir.

***

"Devid Kopperfild"in böyük müəllifini də zirvələrə həmin o imanlı ümid yetirmişdi, xam at kimi əlindən qaçan arzuları məhz imanın, ümidin sayəsində öz ayağıyla onun üstünə qayıtmışdı. Dikkens bizə roman dilində deyir ki, şərin səninlə bağlı məkrli planını (ki, yaşayan hər bir canlıya qarşı belə plan, qəsd nəzərdə tutulub) pozmaq istəyirsənsə, onun qumarına girməyəcəksən, onun oyununa qoşulmayacaqsan. Zalım dünya yalnız haqqa, xeyirə sədaqətdən dönməyən insanı oyuncağına çevirməkdə acizdir; etibarsız, vəfasız, qəddar həyat yalnız bu halda adamı yedəyincə sürüyə bilmir. Yalnız bu halda insan həyata yox, həyat insana işləyir. Deməyim odur ki, Dikkensin günəş sarayı möhkəm etik-fəlsəfi təməl, sarsılmaz mənəvi-psixoloji dayaqlar üzərində qurulduğuna görə bu günəcən abad, işıqlı qalıb.

Yazıçının özünə ən çox bənzəyən qəhrəmanı nə qədər zülm-zillət çəksə də, iblisdən nicat umur, qəlbini şeytana satmır, halbuki bunca əzablara qatlanan bəndə maddi dünyanın məntiqiylə allahından dönüb amansız despot, fələyə şər planı ödəyən qatı cinayətkar, ya da kimliyini qarnının içinə sığdırmış məzlum kölə olmalıydı. Təkcə elə uşaq əməyinin istismar olunduğu cəhənnəm laboratoriyasında çəkdikləri Devidin qısa zamanda fabrik fəhləsindən şeytan fəhləsinə çevrilməyinə yetərdi.

Eyni sınaqla bir zaman müəllif özü də qarşılaşmışdı, tələfxərc atası borclular türməsinə salınanda dözülməz şəraitdə işləməyə məcbur olmuşdu. Nənəsindən qalan mirasın hesabına Con Dikkens bütün borclarını ödəyib azadlığa çıxandan sonra belə anası Çarlzın fabrikdəki məşəqqətli ağır işdən aralanmağını istəməmişdi, bununla da oğlunun ürəyinə sağalmaz yara vurmuşdu. Həyatsevər, kitabsevər atanın təkidi sayəsində Çarlz təhsilini yarımçıq qoymamışdı.

Romandakı mister Mikoberin prototipi də ata Dikkensdir. Quyunun dibinə düşsə də, Con Dikkens öz yerini şeytana nişan vermirdi, ümidini, nikbinliyini heç bir vaxt itirmirdi, həyatdan həmişə xoş sürpriz, şirin pay, möcüzə gözləyirdi. Möcüzə isə özünü yalnız nənənin miras şəklində göstərmədi, bundan qat-qat böyük möcüzə baş verdi - Con Dikkensin əziz xələfi dahi yazıçı, daha doğrusu, yazıçı qismində meydana çıxan peyğəmbər oldu. Beləsini ingilis xalqı, Britaniya torpağı ondan qabaq da görməmişdi, ondan sonra da görmədi...

***

Bir dəfə Londonu gəzdikləri vaxt atası ona bir dikdirdə tikilmiş topdağıtmaz imarəti göstərib demişdi: "Bax, Çarli, əgər zəhmətə qatlaşsan, gələcəkdə sənin də belə gözəl evin olar".

Gün gəldi, Çarlz Dikkens həmin evi satın aldı, ta öldüyü günə qədər o imarətdə yaşadı.



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






## Ramazan ayı 16-cı günün duası

**“Allahummə vəffiqni fihi limuvafəqətil-əbrar. Və cənnibni fihi murafəqətəl-əşrar. Və avini fihi birəhmətikə ila daril-qərar. Bi-ilahiyyətikə ya ilahəl- aləmin”.**

**Tərcüməsi:**

**“İlahi, bu gün yaxşı bəndələrin tayı olmağı mənə nəsib et! Məni pis adamlardan uzaqlaşdır! Bu gün mənə öz rəhmətinlə behişt qərargahında yer ver! Allahlığına and verirəm, ey aləmlərin Allahı”**

# Yeni ümidlər, yeni başlanğıclar!

## Ağdama 346 nəfər yola salındı...

*Yeganə BAYRAMOVA*

Son illər işğaldan azad edilmiş digər ərazilər kimi, Ağdam da öz tarixinin ən böyük dönüş nöqtələrindən birini yaşayır. Əsrlər boyu Ağdam mədəniyyətin, sənətkarlığın, iqtisadi həyatın mərkəzi olub. Vaxtilə dağıdılan şəhərin illər sonra yeni bir həyat ilə canlanması ölkəmizin əzmkarlığının və heç bir zaman ümidini itirməyən xalqın ən parlaq təcəssümüdür.



**Sıfırdan başlanan quruculuq işləri**

Ağdamın yolları əvvəlki kimi boş deyil. Bu gün o yollarda sevincini, həsrətini, xatirələrini özündə cəm edən insanlar gəzir. Şəhərdə böyük bərpa-quruculuq işləri aparılır. Ağdamda “ağıllı şəhər” konsepsiyasına uyğun müasir infrastruktur qurulur, yeni nəfəs, yeni həyat qayıdır. Prezident İlham Əliyevin söylədiyi “Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edəcək”, - fikirləri qısa müddət ərzində artıq reallaşmağa başladı. Azərbaycan öz gücünə nəhəng işlərə start verdi. Sıfırdan bərpa-quruculuq işlərinə başladı.

Qeyd edək ki, işğaldan azad olunmuş rayonlarımızda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin tərkib hissəsi kimi bu ərazilərimizdə mühüm yol-nəqliyyat layihələrinin icrasına da xüsusi diqqət yetirilir. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi bölgədə ictimai nəqliyyatın əlçatanlığını artırmaqla yanaşı, rayonun sosial-iqtisadi dirçəlişinə və regionlararası əlaqələrin genişlənməsinə mühüm töhfə verəcək, öz ata-baba yurdlarına qayıdan soydaşlarımızın digər şəhər və rayonlara rahat şəkildə səfər etməsində böyük rol oynayacaq, ümumilikdə Azərbaycanın nəqliyyat potensialının genişlənməsinə xidmət edəcək. Eyni zamanda, bu cür mühüm infrastruktur layihəsinin həyata keçirilməsi Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşən ölkəmizdə nəqliyyat sahəsində görülən işlərin ardıcıl və yüksək keyfiyyətlə davam etdiyinin bariz nümunəsidir.



**Növbəti sevinc!**

Dünən Ağdam şəhərinə növbəti köç olub. Bu mərhələdə şəhərə köç edən 346 nəfərdən ibarət 90 ailəyə yeni mənzillərinin açarları təqdim olunub. Mərasimdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, eləcə də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

İşğaldan azad edilmiş ərazilərimizə baş tutan köçlər yalnız fiziki proses deyil, bu, gələcəyə olan inamın, mühüm təməllərin atılmasının, mədəniyyətin bərpasının və xalq birliyin simvoludur. Ağdamın hər bir məhəlləsində, məktəbində, xəstəxanasında, fabrikində və ən əsası, evlərində yeni bir gələcək qurulur. Bütün bunlar xalqımızın qəlbindəki yeni ümidlərin, yeni başlanğıcların simvoludur...



# Gözlərimizdəki təhlükə...

## Görmə itkisinə səbəb olan qlaukoma haqqında nə bilirik?

*Yeganə BAYRAMOVA*

Xarici mühitdəki informasiyanı əsasən gözlərimizlə alırıq. Ona görə də görmənin aşağı düşməsinə və itirilməsinə gətirib çıxaran bəzi xəstəliklər insan həyatının dəyişməsinə və əmək qabiliyyətinin itməsinə səbəb olur. Bu xəstəliklər arasında qlaukomanı xüsusilə qeyd edə bilərik.

Xəstəliyə bütün yaş dövrlərində, əsasən də orta və yaşlı nəsil insanlarda rast gəlinir. Statistik göstəricilərə əsasən, yer üzündə yaşayan insanların 2-3 faizi qlaukomadan əziyyət çəkir. Lakin həmin insanların yalnız yarısının öz xəstəliyi haqda məlumatı var.

**“Qara su”...**

Gözün xroniki proqressivləşən xəstəliyi olan Qlaukomaya el arasında “Qara su” xəstəliyi də deyirlər. Xəstəlik gözdaxili təzyiqin qalxması ilə müşayiət olunur, görmə sinirini zədələyir və görmənin geridönməz şəkildə aşağı düşməsinə və itməsinə səbəb olur.

**Müalicəyə çətin tabe olur...**

Xəstəlik əvvəlcə simptomsuz başlasa da, vaxtında müalicəsi aparılmayanda görmə dairəsi tədricən daralır, getdikcə gözün nuru zəifləyir və korluğa aparıb çıxarır.

Qlaukoma 60-dan artıq patologiya nəticəsində yaranır. Xəstəliyə bütün yaş dövrlərində rast gəlinsə də, daha çox 40 yaşdan yuxarı insanlar qlaukomadan əziyyət çəkir. Mürəkkəblik ondadır ki, qlaukoma yalnız yüksək dərəcədə inkişaf edəndən sonra üzə çıxır və müalicəyə çətin tabe olur.




Qlaukomanın vaxtında aparılan müalicəsi yalnız gözdaxili təzyiqi endirən damcıların tökülməsindən ibarətdir. Xəstəliyin daha ağır hallarında isə lazer cərrahiyyəsinə və ya operativ müdaxiləyə üstünlük verilir. Bütün hallarda müalicə forması xəstəliyin tipi, dərəcəsi və xəstənin yaşı nəzərə alınaraq aparılır. Müasir texnologiyalar müalicə prosesini maksimum dərəcədə təhlükəsiz və uğurla aparmağa imkan verir, hətta əksər hallarda onun müalicəsi üçün stasionar şəraitdə qalmaq tələb olunmur.

**Erkən diaqnoz vacibdir**

Statistikaya görə, hazırda dünyada 80-90 milyon qlaukoma xəstəsi var. Qlaukoma nəticəsində görməsini itirmiş gözün yenidən görməsini bərpa etmək, təəssüf ki, mümkün olmur. Buna görə də korluğa səbəb olan xəstəliklərin önündə gələn qlaukomaya erkən qoyulan diaqnoz mövcud görmənin qorunub saxlanması və zədələnməmiş sinir liflərinin yaşaması üçün çox önəmlidir. Bir sözlə, erkən diaqnoz insanı kor olmaqdan xilas edər. Müalicəsi mümkün olan xəstəliyin korluğunu dərmanlarla və ya əməliyyatla əngəlləmək olar.

Yeri gəlmişkən, bu gün dünyanın bir sıra ölkələrində Ümumdünya Qlaukoma ilə Mübarizə Günü kimi qeyd olunur. Qlaukoma ilə Mübarizə Günü 2008-ci ildən Ümumdünya Qlaukoma Cəmiyyətləri və Ümumdünya Qlaukomalı Xəstələr Assosiasiyalarının təşəbbüsü ilə martın 6-da keçirilir.

# Dişlərimizin qeydinə qalanlar...

## Bu gün stomatoloqların bayramıdır

*Yeganə BAYRAMOVA*

Dişlərimizi qorumaq sağlamlığımız üçün vacibdir. Stomatoloqlar bu işdə ən güvəndiyimiz mütəxəssislərdir, onların əməyi sağlam gülümsəmələrimizin təməlini qoyur. Hər birimiz üçün gözəl bir gülümsəmə həm özümüzə, həm də ətrafımıza müsbət təsir göstərir. Lakin dişlərimizi qorumaq təkcə estetikadan ibarət deyil. Bu, ümumi sağlamlığımıza da ciddi təsir edir.

Stomatoloqların öz peşələrində əhəmiyyətini yüksək qiymətləndirdiyimiz Beynəlxalq Stomatoloq və ya Beynəlxalq Diş Həkimi Günü hər il martın 6-da bütün dünyada qeyd olunur. Bu əlamətdar günün qeyd olunma ənənəsi ildən-ilə daha geniş yayılır. Bu tarixin seçilməsinin səbəbi isə stomatologiya sənətinin əsas atributlardan birinin məhz həmin gün ixtira olunması ilə bağlıdır.

**Əvvəllər yalnız ABŞ-da qeyd edilirdi**

1790-cı ilin martın 6-da ABŞ-ın ilk prezidenti Corc Vaşinqtonun şəxsi diş həkimi Con Qrinvud tərəfindən stomatoloji bor kəşf edilib. Yeni ixtira ayaqla hərəkətə gətirilən iri bormaşın olub. Həmin stomatoloji alətin köməyi ilə Qrinvud tərəfindən Corc Vaşinqton üçün protez diş hazırlanıb. Ən maraqlısı odur ki, cihazın hərəkətə gətirilməsində Qrinvud öz anasına aid çəhrənin təkərindən istifadə edib. Elektrik bormaşın isə həmin ixtiradan bir əsr sonra - 1907-ci ildə istifadəyə verilib.



Beynəlxalq Diş Həkimi Günü milli peşə bayramı kimi əvvəlcə yalnız ABŞ-da qeyd edilirdi. Sonralar diş həkimlərini təbrik etmək ənənəsi Şimali Amerikadan digər ölkələrə də yayıldı. Həmin ölkələr sırasına ilk daxil olanlardan biri Hindistan oldu.

**Diş sağlamlığımız üçün...**

Ağız və diş sağlamlığını qorumaq üçün altı ayda bir müntəzəm olaraq diş həkiminin müayinəsində olmalıyıq. Diş çürüməsinin qarşısını almaq üçün əsas qaydalar suda kifayət qədər flüor olması, dişləri müntəzəm olaraq fırçalamaq, diş ipindən istifadə etmək, həddindən artıq şirin və şəkərli qidalardan mümkün olduğu qədər uzaq durmaq, yeməkdən sonra dişlərinizi fırçalamaqdır.

**Fırçanın düzgün istifadəsi vacibdir...**

Dişləri effektiv şəkildə fırçalamaq üçün həkimlərin tövsiyə etdiyi sərtliyə malik diş fırçası istifadə edilməlidir. Çox məcun istifadə etmək ağızdakı təravəti artırır, beləliklə dişlər tam təmizlənmədən fırçalama prosesinin dayandırılmasına səbəb olur. Bu, effektiv təmizləmənin qarşısını alır. Fırçalama heç vaxt sağdan sola üfüqi şəkildə aparılmamalıdır. Başqa sözlə desək, diş fırçası düzgün istifadə edilmədikdə, zamanla bədənin ən sərt toxuması olan diş minasını aşındıra bilər.

# Azercell-in dəstəyi ilə Beyləqanda qızlar üçün STEM dərslərinə start verilir

Lider mobil operatorun qadınların sosial və iqtisadi imkanlarının genişləndirilməsinə dəstək məqsədilə həyata keçirdiyi sosial layihə müsabiqəsinin qaliblərindən biri olan “Mil” Sosial və İqtisadi Sahələrdə Maarifləndirmə İctimai Birliyi “Robogirls” layihəsinin icrasına başlayıb. Şirkətin dəstəyi ilə Beyləqan rayonunun kənd və qəsəbələrində təhsil alan qızlar üçün STEM təlimlərinə start verilir.

Təşəbbüs 6-7-ci sinif şagirdlərinin texnologiya və innovasiya sahələrinə marağının artırılmasına, onların rəqəmsal bacarıqlarının inkişaf etdirilməsinə və gələcək karyera perspektivlərinin formalaşmasına dəstək göstərilməsinə yönəlib.

Proqrama ümumilikdə 90 məktəbli qız müraciət edib. Seçim mərhələsində iştirakçılar informatika və süni intellekt mövzularını əhatə edən test imtahanında biliklərini nümayiş etdiriblər. Müəllimlər və müstəqil ekspertlər tərəfindən aparılan qiymətləndirməyə əsasən, ən yüksək nəticə göstərən 30 məktəbli qız təlimlərdə iştirak etmək imkanı qazanıb.

Təlim proqramı çərçivəsində iştirakçılar robototexnika və STEM istiqamətləri üzrə həm nəzəri biliklər, həm də praktiki bacarıqlar əldə edəcəklər. Dərslər şagirdlərin texnologiya sahəsi üzrə biliklərinin təşviqini, analitik və yaradıcı düşünmə, eləcə də problem həll etmə bacarıqlarının inkişafını hədəfləyir.

Qeyd edək ki, artıq üçüncü ildir ki, Azercell-in sosial layihə müsabiqəsi qadınların ictimai həyatda rolunun gücləndirilməsinə yönəlmiş təşəbbüsləri dəstəkləməklə inklüziv cəmiyyətin qurulmasına töhfə verir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4966
Sifariş: 327
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova